

## Qüdrətli lider, müzəffər Ali Baş Komandan

4



# Səs

№ 236 (6436) 24 dekabr 2021-ci il. Qiymətı 40 qəpik



## "Bu gün YAP cəmiyyətdə böyük inam və etimada sahibdir"

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 143 əməkdaşına Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib, daha 107 əməkdaşın üzvlüklə bağlı ərizəsi qəbul edilib

3

## Azərbaycan Fransaya nota verib

Fransanın Azərbaycandakı müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb və ona etiraz notası təqdim edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, dekabrın 22-də Fransanın İl-dö-Frans regionunun prezidenti, Fransada keçiriləcək prezident...



2

# İlham Əliyev fenomeni: Siyasi varislikdən liderliyə doğru!



8

Prezident İlham Əliyev Vətən müharibəsində qazandığı Qələbə ilə Lider kimi adını tarixə əbədi yazdı




## "Yeni media mütəxəssislərinin hazırlanması məqsədilə bundan sonra da tədbirlərin keçirilməsi nəzərdə tutulur"

Dövlətimizin başçısının 2021-ci il 12 yanvar tarixli müvafiq Fərmanına əsasən media sahəsində islahatların...

6



6

## Messi antirekordunu təkrarladı




PSJ-nin argentinalı futbolçusu Lionel Messi antirekordunu təkrarlayıb. Qol.az "Stats Foot"a istinadən xəbər verir ki, futbol üzrə Fransa çempionatının 19-cu turunda səfərdə "Loryen"lə...

16



## Anti-Paşinyançılar doğrudanmı ağıllanıblar?

14

İllər boyu öz günahı üzündən blokadada qalan Ermənistan nəhayət, oradan çıxmaq üçün qəti qərara...



## Stanislav Pritçin: "Azərbaycan Ermənistan və Rusiya arasında bağlayıcı faktor ola bilər"

15

Rusiya Elmlər Akademiyasının Primakov adına Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər Milli Elmi-Tədqiqat İnstitutunun...

# "Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünə verdiyi dəstək yüksək qiymətləndirilir"

*Prezident İlham Əliyev Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər nazirini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviçi qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaq Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviçin salamlarını dövlətimizin başçısına çatdırdı.**

Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Şefik Caferoviçə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı bu yaxınlarda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviçlə görüşünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünə və Vətən müharibəsi dövründə ölkəmizə verdiyi dəstəyi bir daha yüksək qiymətləndirdi, bunu dostluq və tərəfdaşlıq əlaqələrinin mühüm göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın da Bosniya və Herseqovinanı dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən 30 ilə yaxın davam edən işğal dövründə şəhərlərin, kəndlərin, tarixi və dini abidələrin darmadağın edildiyini bildirərək indi ölkəmizin həmin ərazilərdə həyata keçirdiyi geniş yenidənqurma və bərpa işlərindən danışdı.

Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviç ölkəmizin əldə etdiyi böyük nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı və inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu qeyd etdi.

# Azərbaycan

## Fransaya nota verib

**Fransanın Azərbaycandakı müvəqqəti işlər vəkili Xarici İşlər Nazirliyinə çağırılıb və ona etiraz notası təqdim edilib. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.**



Bildirilib ki, dekabrın 22-də Fransanın İl-dö-Frans regionunun prezidenti, Fransada keçiriləcək prezident seçkilərinə Respublikaçılar partiyasının namizədi Valeri Pekrez Azərbaycan Respublikasının Xankəndi şəhərinə qanunsuz səfər edib. Seçkiqabağı kampaniya çərçivəsində digər fransız siyasətçilərin müşayiəti ilə həyata keçirilən bu səfər Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlməklə ölkənin milli qanunvericiliyinin pozulması halıdır.

Xarici İşlər Nazirliyi qanunsuz səfər ilə bağlı Fransa səfirliyinə qəti etirazını bildirib və Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərini ciddi şəkildə pozan sözügedən Fransa vətəndaşlarının milli qanunvericiliyimizə uyğun olaraq məsuliyyət daşıdığını xatırladıb.

Fransadan olan bir qrup siyasətçinin bu addımının Azərbaycan-Fransa ikitərəfli əlaqələrinə ziyan vurduğu, eyni zamanda, Fransanın regionda nüfuzuna və münaqişənin başa çatmasından sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında oynaya biləcəyi rola ciddi xələl gətirdiyi qarşı tərəfin diqqətinə çatdırılıb. Məlumat üçün bildirmək istərdik ki, Azərbaycan ərazilərinə qanunsuz səfər edən Fransa vətəndaşlarının adları ölkəmizə girişi arzuolunmaz şəxslər siyahısına daxil edilib.

# Akkan Suver:

## Prezident İlham Əliyev adını türk dünyası tarixinə Qarabağ həsrətinə son qoyan şəxsiyyət kimi yazdırıb



**Ulu öndər Heydər Əliyevin əmanətini göz bəbəyi kimi qoruyan, onun yolunu çox böyük şərəf və mətanətlə davam etdirən Prezident İlham Əliyev kimi dövlət başçısına sahib olduğu üçün Azərbaycan xalqı çox xoşbəxtdir. Təkcə Qafqazda deyil, türk dünyasında və bütün dünyada böyük dövlət xadimi kimi tanınmaqla yanaşı çağdaş hərbi-strateji hədəfləri uğurla yerinə yetirən sərkərdə kimi də fərqlənən İlham Əliyev adını türk dünyasının tarixinə otuz illik Qarabağ həsrətinə son qoyan bir şəxsiyyət kimi qızıl hərflərlə yazdırıb.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suver ifadə edib.

Prezident İlham Əliyevin tutduğu siyasi xəttin sülh, harmoniya və birgəyaşayışdan ibarət olduğunu vurğulayan professor deyib: "Prezident İlham Əliyev Qarabağ məsələsinin masa arxasında həlli üçün illər boyu çox səy göstərdi. Dövlətlərarası münasibətlər, qonşu ölkələrlə sülh içində yaşamağa çox böyük önəm verən Azərbaycan Prezidenti bu gün də qonşuları ilə harmoniya içində yaşamağın yol xəritələrini həyata keçirir".

"Bütün dünya ölkələri ilə nümunəvi şəkildə, əmin-amanlıq şəraitində işlərini davam etdirən Prezident İlham Əliyevin insanlığa olan hörməti və insan sevgisinin təzahürüdür ki, Qarabağ işğalının sülh yolu ilə həll olunması istiqamətində əlindən gələni etdi. İllərlə bu istiqamətdə gördüyü işlərə baxmayaraq qarşı tərəfin israrları və təcavüzləri İkinci Qarabağ müharibəsinin başlamasına səbəb oldu. Döyüş meydanlarında da Ali Baş Komandan kimi özünü sözün əsl mənasında sübut edən Prezident İlham Əliyevin ən böyük sərvəti və dəstəyi isə bir yumruq kimi birləşərək onun arxasında duran Azərbaycan xalqı oldu. Altım yaşında bu cür uğurlara imza atmaq çox az insana qismət olub. Bütün bu hisslərimi dilə gətirərək Azərbaycan Prezidenti İlham Əliyevi doğum günü münasibətilə təbrik edir, tutduğu yolun bundan sonra da böyük uğurlarla yadda qalmasını diləyirəm", - deyə professor bildirib.







# "Bu gün YAP cəmiyyətdə böyük inam və etimada sahibdir"

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 143 əməkdaşına Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələri təqdim edilib, daha 107 əməkdaşın üzvlüklə bağlı ərizəsi qəbul edilib**





**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Yeni Azərbaycan Partiyasının (YAP) Yasamal rayonu, S.Əsgərova küç., 85 ərazi partiya təşkilatının iclasında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev də iştirak ediblər.**

S.Babayev 1992-ci ilin noyabr ayında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edib. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Partiyanın cəmiyyətdə böyük inam və etimada sahib olduğunu vurğulayıb.

Nazir ulu öndər Heydər Əliyevin müdrik siyasətinin 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirildiyini, ötən 18 ildə əldə olunan mühüm uğurları, xüsusilə Vətən müharibəsində möhtəşəm Zəfərimizi diqqətə çatdırıb. Həmçinin sosial nailiyyətləri, sosial proqramların əhəmiyyətli dərəcədə genişləndiyini, sosial ödənişlər üzrə xərclərin son 3 ildə 60% və ya 2,4 milyard manat artdığını qeyd edib.



S.Babayev bu günlərdə Prezidenti İlham Əliyevin imzaladığı 10 Fərman və Sərəncamla sosial islahatların yeni mərhələsinə başlandığını, 2,1 milyondan çox şəxsi əhatə edən sosial ödənişlərdə növbəti dəfə ciddi artımlar edildiyini bildirib.

O, Nazirlik əməkdaşlarından YAP sıralarına daxil olanların artmaqda olduğunu, 2018-ci ilin aprel ayından Nazirlik sistemi üzrə 900-ə yaxın işçinin Partiya sıralarına qəbul edildiyini, Nazirlik və qüumlarından 4 min əməkdaşın YAP üzvü olduğunu bildirib.



Nazir Partiyaya yeni üzv qəbul olunan əməkdaşları təbrik edib.

Tədbirdə partiyanın üzvlüyünə qəbul olunan nazirlik əməkdaşları çıxış edib. Ümumilikdə Nazirlik sistemində çalışan 143 əməkdaş Partiyaya üzv qəbul olunub, onlara üzvlük vəsiqələri verilib. Daha 107 əməkdaşın YAP-a üzv qəbul olunmaq üçün ərizələri qəbul edilib.

Sonra çıxış edən T.Budaqov 1990-cı illərin əvvəllərində, Azərbaycanın ağır vəziyyətdə olduğu bir vaxtda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə yaradılan YAP-ın ölkəmizin bütün sahələrdə inkişafında mühüm rolunu vurğulayıb. O, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın əldə etdiyi tarixi nailiyyət və qələbələri diqqətə çatdırıb.

T.Budaqov YAP-ın qarşıya qoyulan vəzifələrinin yerinə yetirilməsində rayon və ərazi partiya təşkilatlarının da rolunu, onların mütəşəkkil, aktiv fəaliyyətinin vacibliyini qeyd edib. O, Partiyaya yeni üzv qəbul olunanları təbrik edib.

Nazirlik sistemində çalışan əməkdaşlara Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqələrini təqdim edilib.

# Qüdrətli lider,

## müzəffər Ali Baş Komandan

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın yap.org.az-a müsahibəsi*

**- Hörmətli Sahibə xanım, hazırda ölkəmizdə həyata keçirilən çox genişmiqyaslı islahatlar kursu bütün sahələri əhatə etməklə, möhtəşəm uğurlarla müşayiət olunur. Son 18 ildə ölkəmizin əldə etdiyi tarixi nailiyyətlər bir daha 2003-cü ildə Azərbaycan xalqının Heydər Əliyev siyasətinə dəstək verməsinin, bu siyasətin möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin parlaq nəticələridir. İstərdik ki, Sizinlə söhbətimizə də bu mövzu ilə keçid edək.**



- Əlbəttə, hər bir xalqın, hər bir dövlətin tarixində onun sonrakı inkişaf yolunu, müstəqillik yolunu müəyyənləşdirən taleyüklü məqamlar, tarixi qərarlar olmuşdur. Azərbaycan dövlətçilik tarixində də belə tarixi anlar olmuş və xalqımız bu məqamlarda doğru qərarlar qəbul edərək, öz taleyinə sahib çıxmışdır. Azərbaycan xalqı müdrik xalqdır. 1993-cü ildə müstəqilliyimiz, müstəqil dövlətçiliyimiz təhlükə qarşısında qalanda, Azərbaycan xalqı böyük müdriklik nümayiş etdirərək, ən düzgün qərar qəbul etmiş, ən doğru ünvana yönəlmişdir. Xalqımız həmin məşəqqətli günlərdə Azərbaycanın dövlət müstəqilliyini, xalqımızın gələcəyini xilas etmək üçün inandığı, etimad göstərdiyi, böyük lider Heydər Əliyevə müraciət edəndə də, 2003-cü ildə - yeni əsrin və yeni minilliyin başlanğıcında tarixi seçim anında Heydər Əliyev siyasətinə dəstək verəndə də eyni müdrikliyi, əzmi və qətiyyəti nümayiş etdirmişdir.

Ümummilli lider Heydər Əliyev 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına tarixi müraciətində tam haqlı olaraq, cənab İlham Əliyevə böyük etimadını ifadə etmiş və bəyan etmişdir ki, "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək". Azərbaycan xalqı isə heç bir tərəddüd etmədən və əminliklə Ümummilli Liderin bu müraciətinə dəstək vermişdir. Ona görə ki, xalq özünün böyük lideri Heydər Əliyevə sarsılmaz inam bəsləyir, Onun göstərdiyi yolun ən düzgün yol olduğunu birmənalı qəbul edirdi. Azərbaycan xalqı o reallığı da dərk edirdi ki, qarşıdakı dövrdə də ölkəmizin gələcəyi naminə Heydər Əliyev siyasətinin davam etdirilməsi taleyüklü və həlledici amildir və Heydər Əliyev siyasətini davam etdirmək gücündə və iqtidarında olan, başlanılan qlobal işləri, transmilli layihələri uğurla həyata keçirə biləcək, Azərbaycanı Ulu Öndərin görmək istədiyi zirvələrə qaldıracaq yeganə lider möhtərəm Prezident İlham Əliyevdir. Azərbaycan xalqının bu tarixi seçimini şərtləndirən digər vacib amil isə şübhəsiz ki, yeni əsrin yeni Lideri kimi xarakterizə olunan cənab İlham Əliyevin ali kürsüdə fəaliyyətə başlayana qədər də bütün dövləti vəzifələri çox böyük uğurla həyata keçirməsi, nümayiş etdirdiyi xarizmatik liderlik və yüksək idarəçilik məharəti ilə istisnasız hər kəsin inamını qazanması olmuşdur. Bəli, bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, onun cənab İlham Əliyev kimi görkəmli dövlət xadimi qüdrətli, güclü, dünyada böyük nüfuza və hörmətə malik Lideri var. Möhtərəm Prezident İlham Əliyev həm də adı bütün dünyada böyük ehtiram və hörmətlə səslənən qlobal miqyaslı şəxsiyyətdir. Tam əminliklə söyləyə bilərik ki, dünya tarixində iz buraxmış böyük dövlət xadimlərinə xas olan liderlik bacarığı, səriştəli idarəçilik qabiliyyəti, qətiyyətlilik və prinsipiallıq, humanizm və digər yüksək keyfiyyətləri Azərbaycanın dövlət başçısında müşahidə edirik.

Ali kürsüdə ilk gündən Prezident cənab İlham Əliyev bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıca şərt ölkədə Heydər Əliyevin siyasətinin davam etdirilməsidir. Çünki təcrübəli siyasətçi, geniş dünyagörüşünə malik müasir lider və böyük strateq kimi cənab Prezident İlham Əliyev çox dəqiq müəyyən etmişdir ki, yalnız Heydər Əliyev strategiyasını həyata keçirməklə, Onun qoyduğu siyasi yolu davam etdirməklə Azərbaycanı güclü dövlətə çevirmək mümkündür. Zaman bir daha Azərbaycan xalqını haqlı çıxardı və Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan 18 ildir ki, uğurla inkişaf edir və Prezident İlham Əliyevin rəhbərliyi ilə özünün dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

***- Hörmətli Sahibə xanım, Sizin də qeyd etdiyiniz kimi, Azərbaycan dövləti özünün inkişaf tarixinin şərəfli mərhələsini yaşayır. Bu dövrdə - ötən 18 ildə Azərbaycan dövləti möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə hansı böyük uğurlara imza atmışdır, hansı taleyüklü məsələlər həllini tapmışdır?***

- Düşünürəm ki, bu sual ətrafında saatlarla, günlərlə danışmaq olar. 18 il dövlətçilik baxımından, elə də böyük bir dövr olmasa da, bu zaman periodu xalqımızın dövlətçilik tarixində ölkəmizin qarşısında duran hədəflərin reallaşdırılması, respublikamızın parlaq, ardıcıl inkişafının təmin edilməsi, müstəqilliyinin daha da möhkəmləndirilməsi, tarixi nailiyyətlərin əldə olunması kontekstində ən parlaq, ən şanlı dövrlərdən birini təşkil edir.

Dövlətimizin başçısı yeni minillikdə və müasir çağırışlar fonunda Azərbaycanı modernləşdirmək, dövlətimizi yeni inkişaf mərhələsinə qovuşdurmaq missiyasını çox uğurla yerinə yetirmişdir. Son 18 il ərzində Azərbaycan modernləşərək yeni bir keyfiyyət mərhələsinə qədəm qoymuş, ölkənin siyasi, iqtisadi, mədəni həyatı yeniləşərək tamamilə dəyişmişdir. Möhtərəm Prezident İlham Əliyevin praqmatik, çevik siyasəti, sistemli və ardıcıl strateji kurs ölkəmizin müasir inkişafını təmin etmişdir.

Bu illər ərzində ölkəmizdə ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi daha da möhkəmlənmişdir. Prezident İlham ?liyevin liderliyi ilə Azərbaycan yeni əsrin əvvəllərində keçid iqtisadiyyatı ilə vidalaşaraq yeni tərəqqi və milli inkişaf arxitekturası üzərində möhkəmlənən iqtisadi modelin tətbiqinə başlamış, postsovet ölkəsi fazasından çıxaraq yüksək inkişaf göstəriciləri ilə irəliləyən innovativ və modern iqtisadiyyata malik ölkə kimi inamla inkişaf etmişdir. Bu dövrdə iqtisadiyyatın dinamik inkişafı, uzunömürlü tərəqqi, dayanaqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuş, həyata keçirilən dövlət proqramları bütün bölgələrin hərtərəfli və tarazlı sosial?iqtisadi tərəqqisinə və qeyri-neft sektorunun inkişafına yol açmışdır. Prezident İlham Əliyevin milli inkişaf doktrinasının başlıca hədəflərini təşkil edən modern və innovativ iqtisadiyyatın idarə olunması şəffaflığa və açıq cəmiyyətin təmin edilməsinə əsaslanmışdır. Ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, milli istehsalın və ixracın genişləndirilməsi, regional inkişaf proqramlarının uğurlu icrası və iqtisadi aktivlik coğrafiyasının regionlara doğru genişlənməsi, modern sənaye quruculuğu, qeyri-neft sektorunun sabit inkişafının təmin olunması kimi başlıca strateji vəzifələr uğurla yerinə yetirilmişdir.

O da məlumdur ki, ölkəmizin iqtisadi imkanlarının genişlənməsi və iqtisadi qüdrətinin artması daha səmərəli və çoxşaxəli sosial müdafiə tədbirlərinin həyata keçirilməsinə imkan vermişdir. Son 18 ildə ölkənin infrastruktur sistemi tamamilə yenilənmiş, müasir əsaslarda yenidən qurulmuşdur. Məqsədyönlü sosial tədbirlər nəticəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, rifah halının yüksəlməsinə xidmət edən, vətəndaşların ali mənafeyinin üstün tutulduğu uğurlu sosial dövlət modeli formalaşdırılmış, işsizliyin və yoxsulluğun səviyyəsinin aşağı salınmasına nail olunmuş, əməkhaqları, pensiya və təqaüdlər əsaslı şəkildə artırılmışdır. Möhtərəm Prezident İlham Əliyevin cari ilin oktyabr ayının 16-da "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalaması, bir neçə gün öncə isə yeni Sərəncam və Fərmanlarla əhalinin həssas qruplarına yönələn sosial ödənişlərin artırılması istiqamətindəki islahatların uğurla davam etdirilməsi bir daha Azərbaycanda vətəndaşların rifah halının yüksəldilməsi və sosial müdafiə tədbirlərinin genişləndirilməsinin qarşıdakı illərdə də prioritet olacağını söyləməyə əsas verir.

Azərbaycanda iqtisadi islahatlar uğurlu siyasi islahatlarla tamamlanır. Başqa sözlə, Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir. Möhtərəm Prezidentin prinsipiallığı bu sahədə də ciddi uğurların əldə olunmasını təmin etmişdir. Onun "Biz çalışmalıyıq ki, dünyanın demokratik baxımdan ən inkişaf etmiş ölkələrinin standartlarına yaxınlaşaq və bunu edəcəyik", fikri ölkənin liderinin demokratik proseslərin ardıcıllığının və dönməzliyinin təmin edilməsi ilə bağlı tələbkarlığının ifadəsidir. Müasir Azərbaycan 1993-cü ildə "Yolumuz demokratiya yoludur" deyən Ulu Öndərin görmək istədiyi respublikaya çevrilmişdir.

Bu gün hakimiyyətin bütün qollarında-qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində dərin islahatlar həyata keçirilir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi sistemin təkmilləşdirilməsi və siyasi dialoq mühitinin möhkəmləndirilməsi, yeni siyasi konfiqurasiyanın yaranması, demokratik təsisatların fəaliyyətinə geniş imkanların yaradılması, plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi, söz və məlumat azadlığının təmin olunması, məhkəmə - hüquq sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasət Azərbaycanın demokratik sütunlarının daha da möhkəmlənməsini şərtləndirmişdir.

Azərbaycanın hərtərəfli inkişafını xarakterizə edən mühüm məsələlərdən biri də bütün sahələri əhatə edən geniş və innovativ proqramların icrası, konseptual yanaşmanın tətbiqidir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni nəsil və modern islahatlar strategiyası Azərbaycanın dinamik inkişafını təmin edən mühüm şərtlərdən biridir. Qabaqcıl institusional islahatlar sırasında isə Birinci vitse-prezidentlik institutunun yaradılması müstəsna əhəmiyyətə malikdir. Ötən dövr göstərdi ki, ölkədə vitse-prezidentlik təsisatının yaradılması və hörmətli Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi sonrakı mərhələdə vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsində mühüm amil olmuşdur. Mehriban xanım Əliyevanın uğurlu və çoxşaxəli fəaliyyəti, ölkəmizin tərəqqisi, ayrı-ayrı sahələrdə mühüm inkişaf göstəricilərinin əldə olunması baxımından böyük əhəmiyyətə malikdir. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsində vacib rol oynayır. Mehriban xanım Əliyevanın istər 44 günlük Vətən müharibəsi dövründə Ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində, istər pandemiya ilə mübarizədə həyata keçirdiyi tədbirlər milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfədir.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu dahi Heydər Əliyevin ölməz ideyalarını yaşadır, bu ideyalar işığında mənsub olduğu xalqa ləyaqətlə xidmət edir. Fondun milli-mənəvi dəyərlərin, multikulturalizm ənənələrimizin, mədəni irsimizin qorunmasında və dünyada təbliğində mühüm rolu, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına verdiyi əvəzsiz töhfələri, xüsusi qayğıya ehtiyacı olan insanlara əl tutması onun xalqın hər kəsiminin böyük sevgisini qazanmasına səbəb olmuşdur. Fondun bir çox ölkələrdə həyata keçirdiyi humanitar təşəbbüslər isə Azərbaycanın adının dünyada daha çox tanıdılmasına xidmət edir.

***- Azərbaycanın iqtisadi, sosial, siyasi sahələrdə əldə etdiyi nailiyyətlər xarici siyasət sahəsində də uğurlu və qətiyyətli addımlar atmağa imkan vermişdir. Bu gün Azərbaycan qlobal miqyasda güclü və etibarlı tərəfdaş kimi qəbul olunur....***

- Əlbəttə, bu tamamilə obyektiv rəydir. Azərbaycan Prezidentinin sülh və humanizm, birgə geniş əməkdaşlığı təmin edən xeyirxah missiyası qlobal məkanda birliyin, tolerantlığın, sivilizasiyalararası dialoqun, multikulturalizmin dərinləşməsinə töhfə verir, dövlətlərarası səmimi münasibətlərin təməl nöqtələrinin trayektoriyasını müəyyən edir.

Ardı Səh. 5

# Qüdrətli lider, müzəffər Ali Baş Komandan

## *Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın yap.org.az-a müsahibəsi*

Əvvəli səh. 4

Azərbaycanın dövlət başçısının təşəbbüsləri ən yüksək səviyyədə qəbul olunur, Onun təşəbbüsü ilə BMT, Qoşulmama Hərəkatı və digər mühüm beynəlxalq təşkilatların vacib tədbirləri keçirilir.

Qeyd edim ki, ötən 18 ildə bütün digər istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də ulu öndər Heydər Əliyevin əsasını qoyduğu prinsiplər uğurla tətbiq olunmuş, milli maraqlara söykənən müstəqil xarici siyasət həyata keçirilmişdir. Möhtərəm Prezident İlham Əliyev həmişə milli mənafe və maraqların qorunmasında uzaqgörənlik və prinsipiallıq nümayiş etdirmiş, hər zaman öz xalqına arxalanmışdır. Ölkə başçısının qətiyyəti, yüksək diplomatik səriştəsi, həmçinin, bütün məsələlərdə beynəlxalq hüquqa və ədalətə istinad edən prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq nüfuzu getdikcə yüksəlmiş, 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövləti təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir və təşkilata uğurla sədrlik etməkdədir. Digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycana inteqrasiyanın dərinləşməsinə, ölkə reallıqlarını dünya ictimaiyyətinə obyektiv və dolğun çatdırmağa imkan vermişdir.

Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyada enerji və kommunikasiya təhlükəsizliyinin təmin olunmasına da əhəmiyyətli töhfələr verir. Son 18 ildə Prezident İlham Əliyevin təşəbbüsü və ölkəmizin müəllifliyi ilə nəhəng transmilli energetika layihələri həyata keçirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-?rzurum qaz kəməri, XXI əsrin ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizi kimi enerji təhlükəsizliyində mühüm rol oynayan nəhəng layihələr Avropanın enerji xəritəsini dəyişdirmişdir. Həmçinin Azərbaycanın təşəbbüsü ilə qlobal əhəmiyyət daşıyan trans-nəqliyyat, kommunikasiya layihələri reallaşdırılmış, Avropanı Asiya ilə birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması təmin edilmiş, Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur. Həyata keçirilən qlobal layihələr nəticəsində Azərbaycan Avrasiyanın nəqliyyat habına çevrilmişdir. Hazırda ölkəmizdə altı beynəlxalq hava limanı var və Ermənistanın işğalından azad olunmuş ərazilərdə daha üç beynəlxalq hava limanı olacaqdır. Bildiyimiz kimi, artıq Füzuli rayonunda bu limanların birinin açılışı olmuşdur. Davos Forumunun reytinqinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə 27-ci, hava nəqliyyatı xidməti və dəmir yolu nəqliyyatı xidmətinə görə 11-ci və 12-ci yerdə qərarlaşmışdır. Hazırda bu istiqamətdə əsas prioritetlərdən biri Zəngəzur dəhlizinin yaradılmasıdır. Həmin dəhliz Azərbaycandan Ermənistana və oradan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedərək Türkiyə və Avropaya qədər uzanır. Şübhəsiz ki, bu dəhliz yeni nəqliyyat qovşağı üçün çox geniş imkanlara malik alternativ marşrut olacaqdır.

Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü və ölkəmizin müəllifliyi ilə həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələri ölkəmizin güclənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə geniş imkanlar yaratmaqla yanaşı, daha geniş bir coğrafiyada əməkdaşlığın və təhlükəsizliyin təmin olunmasına mühüm töhfələr verir və Azərbaycan bu sahədə də güclü aktor rolunu məharətlə icra edir.

Təbiidir ki, uzun illər ərzində Azərbaycanın xarici siyasət institunun qarşısında duran bir nömrəli məsələ artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin həlli olmuşdur. Prezident cənab İlham Əliyev bu istiqamətdə də vəzifəni konkret müəyyənləşdirərək, qeyd etmişdir ki, "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar". 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan möhtərəm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə özünün zəfər salnaməsinə daha bir möhtəşəm səhifə əlavə edərək, qalib dövlət kimi dünyaya öz gücünü göstərmişdir. Bu gün müzəffər Ali Baş Komandan İlham Əliyev dünyanın tanınmış ictimai-siyasi xadimləri tərəfindən haqlı olaraq müharibə və sülh dövrünün qəhrəmanı kimi qiymətləndirilir.

***- Hörmətli Sahibə xanım, Siz tamamilə haqlı olaraq, vurğuladınız ki, son 30 ilə yaxın bir dövr ərzində Azərbaycan dövlətinin qarşısında dayanan bir nömrəli məsələ torpaqlarımızın işğaldan azad edilməsi olmuşdur. Azərbaycanın ötən il 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbə sayəsində bu vəzifə də uğurla icra olunmuş və artıq ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur. Bu möhtəşəm qələbənin dövlətçilik tariximizdə yeri barədə nə demək olar?***

- Əlbəttə, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində qazandığı zəfər, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malik olan ən şanlı hadisələrdən biridir. İstər Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin, istərsə də möhtərəm Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayəsini, nüvəsini torpaqlarımızın işğaldan azad edilməsi təşkil etmişdir. Artıq tarixdə qalmış münaqişənin sülh yolu ilə həll edilməsi üçün dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə və digər bütün platformalarda, eyni zamanda qarşı tərəflə birbaşa danışıqlarda göstərilən səylər ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir. Bütün danışıq və görüşlərdə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal faktının aradan qaldırılması məsələləri qətiyyətlə irəli sürülmüş, ölkəmizin bu ədalətli mövqeyinin bütün beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi və qəbul olunması üçün mümkün olan bütün addımlar atılmışdır. Nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Ölkəmiz münaqişənin sülh yolu ilə həllinə dair bütün təşəbbüsləri dəstəkləmiş, problemin ölkəmizin ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həlli istiqmətində lazımi iradə ortaya qoymuşdur.

Biz Vətən müharibəsində əldə etdiyimiz qələbəni təmin edən bir çox amilləri qeyd edə bilərik. Ən mühüm amil son 28 il ərzində Azərbaycanda bərqərar olmuş səriştəli, etibarlı və məsuliyyətli siyasi rəhbərlik fenomenidir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün reallıqlarına və çağırışlarına uyğun, böyük məharətlə həyata keçirilən siyasət ölkəmizin güclü iqtisadi əsaslara malik olması Vətən müharibəsində qələbəni təmin edən ən mühüm məsələlərdən biri olmuşdur. Dayanıqlı iqtisadi inkişaf Azərbaycanda bütün sahələrdə olduğu kimi, qüdrətli ordu quruculuğu istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirməyə imkan vermiş, ölkəmizin müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələri formalaşdırılmışdır. Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən əsgər və zabitlərimizin əksəriyyəti məhz müstəqillik dövründə dünyaya gəlmiş gənclərimiz olmuşdur. Son illərdə Ordumuzun maddi-texniki bazası əsaslı şəkildə gücləndirilmiş, Silahlı Qüvvələrimiz ən müasir döyüş texnikaları ilə, silah-sursatla təmin olunmuşdur. Görülən məqsədyönlü tədbirlər nəticəsində dünya miqyasında 50 ən güclü ordu sırasında olan Azərbaycan Ordusunun texniki imkanları böyük dərəcədə artmışdır və İkinci Qarabağ müharibəsində biz bunu bir daha nümayiş etdirdik. Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi şücaət, yüksək döyüş qabiliyyəti və apardığı əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazılmışdır. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 300-ə yaxın kənd, çoxsaylı strateji yüksəkliklər azad olunmuş, Ermənistan ordusu şanlı Azərbaycan Ordusu tərəfindən darmadağın edilmişdir. Eyni zamanda, biz ölkəmizdəki sabitliyi, milli birliyi, həmrəyliyi, xalqımızın öz lideri ətrafında dəmir yumruq kimi birləşməsini tarixi zəfərin əsas səbəblərindən biri kimi dəyərləndirə bilərik.

Əlbəttə, Vətən müharibəsində əldə etdiyimiz qələbə Azərbaycan tarixində, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bu qələbə sayəsində qalib xalq kimi özünü dünyaya ləyaqətlə təqdim etmişdir. Ali Baş Komandan Ulu öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirərək, xalqımıza özünün çoxəsrlik tarixində ən böyük uğuru və xoşbəxtliyi yaşatmışdır. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi yaşayır və əbədi yaşayacaqdır.

***- Artıq münaqişə başa çatmış və post-münaqişə dövründə həm ölkəmiz, həm də region üçün tamamilə yeni mənzərə yaranmışdır. Bu yeni mərhələdə Azərbaycan dövlətinin qarşısında hansı vəzifələr durur?***

- Azərbaycanın gələcəklə bağlı hədəfləri kifayət qədər aydındır. Möhtərəm Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VII qurultayındakı nitqində bu hədəfləri ifadə edərək demişdir: "Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın". Eyni zamanda, dövlət başçısı yeni dövrü quruculuq inkişaf dövrü kimi xarakterizə etmişdir. Azərbaycan münaqişə sonrası bərpa və yenidənqurma mərhələsinə qədəm qoymuşdur. Söhbət işğaldan azad olunan ərazilərimizin yenidən qurulması ilə yanaşı, regionda yeni proseslərin başlanmasından gedir. Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli birgə bəyanatı xüsusilə regionda kommunikasiya xətlərinin açılması ilə əlaqədar olan 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatı ilə daha da inkişaf etdirilmiş, regionda nəqliyyat kommunikasiya xətlərinin açılması üçün konkret istiqamətlərdə fəaliyyətə başlanılmışdır. Nəqliyyat, kommunikasiya, infrastruktur layihələri regionda sülh, təhlükəsizlik və inkişafa töhfə verəcək və bütün türk dünyası, eyni zamanda, digər ölkələr üçün də əlavə imkanlar yaradacaqdır. Regionda yeni kommunikasiya və nəqliyyat dəhlizlərinin, o cümlədən çox önəmli Zəngəzur dəhlizinin, yaradılması əməkdaşlığı daha da gücləndirəcək, habelə ticarət dövriyyəsinin artmasına xidmət edəcəkdir. Füzulidə yeni beynəlxalq aeroportun inşası, gələcəkdə Zəngilan və Laçında da tikintisi davam edən beynəlxalq hava limanlarının istismara verilməsi regionun nəqliyyat imkanlarını daha da genişləndiriləcək.

Azad olunmuş ərazilərimizin bərpasına gəlincə, bildiyiniz kimi, həmin ərazilərimizdə irimiqyaslı tikinti işləri həyata keçirilir. Azərbaycan müasir şəhərsalma üsulları, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarını tətbiq edərək, sıfırdan yeni şəhərlər və kəndlər inşa edir. Xüsusi olaraq, qeyd etmək lazımdır ki, Azərbaycan bütün bu işləri öz maddi imkanları hesabına görür. Düşünürəm ki, bölgənin zəngin yeraltı və yerüstü təbii ehtiyatlara malik olması, gələcəkdə əlverişli investisiya mühitinin yaradılması onun iqtisadi potensialını daha da artıracaqdır. Həyata keçiriləcək tədbirlər milli iqtisadiyyatımızın da inkişafına təkan verəcəkdir. Çünki azad edilmiş bölgələrin iqtisadi potensialı kifayət qədər böyükdür və ölkəmiz bu potensialdan məharətlə istifadə edərək Qarabağ bölgəsini nəinki Azərbaycanın, dünyanın ən gözəl bölgələrindən birinə çevirəcəkdir.

Məlumdur ki, cari ilin iyul ayında Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu Fərmana əsasən, iki yeni rayon - Qarabağ iqtisadi rayonu və Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb. Təbii ki, bu qərar strateji, iqtisadi və tarixi baxımdan kifayət qədər vacib qərar, əhəmiyyətli bir addımdır. Yeni bölgü işğaldan azad olunmuş ərazilərimizin, bütövlükdə Qarabağın bərpa və yenidənqurma prosesinin daha sürətli, eyni zamanda iqtisadi inkişafın formalaşmasına daha sistemli, dövlət proqramları çərçivəsində yanaşmanın həyata keçirilməsinə imkan verəcək, işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialından daha geniş istifadə edilməsinə şərait yaradacaq.

Ardı Səh. 6

# Qüdrətli lider, müzəffər Ali Baş Komandan

## *Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın yap.org.az-a müsahibəsi*

**Əvvəli səh. 5**

Təbii ki, işğaldan azad olunmuş ərazilərimizin bərpası və dirçəldilməsi, məcburi köçkünlərimizin öz dədə-baba torpaqlarına təhlükəsiz şəkildə qayıtması ilə yanaşı, ölkəmizdəki inkişaf dinamikasının qorunub saxlanılması, əhalinin sosial-müdafiəsinin və rifahının yüksəldilməsi, ölkəmizin beynəlxalq mövqelərinin daha da genişləndirilməsi, təhlükəsizlik və sərhədlərimizin möhkəmləndirilməsi kimi vacib məsələlər də qarşıdakı dövrdə ölkəmizin əsas prioritetləri sırasında olacaqdır.

***- Biz növbəti sualımızı altıncı çağırış Milli Məclisin fəaliyyəti haqqında vermək istərdik. Ötən il fevral ayının 9-da Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər keçirilmiş və bu seçkilər nəticəsində yeni tərkibdə parlament formalaşmışdır. Milli Məclisdən cəmiyyətin gözləntiləri ölkəmizdə geniş vüsət alan islahatlar kursuna səmərəli töhfələr verməsi, müasir dövrün tələbləri ilə səsləşən qanunvericilik təşəbbüsləri ilə çıxış etməsi, parlament diplomatiyasının imkanlarından uğurla faydalanaraq, Azərbaycan gerçəkliklərinin beynəlxalq miqyasda tanıdılması, ölkəmizin mənafe və maraqlarının qorunmasında fəal iştirakı və digər vacib vəzifələrdir. Ötən dövrdə Milli Məclis bu vəzifələrin icrası istiqamətində hansı addımları atmışdır?***

- Qeyd etdiyiniz kimi, ötən il ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların dərinləşdirilməsi, Milli Məclisin fəaliyyətinin səmərəliliyinin daha da artırılması məqsədilə keçirilən növbədənkənar seçkilər nəticəsində altıncı çağırış Milli Məclisin yeni tərkibi formalaşmışdır. Möhtərəm Prezidentimiz İlham Əliyev altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında söylədiyi nitqində parlamentin qarşıdakı dövrdə fəaliyyətinin həyata keçirilməsi ilə bağlı çox dəyərli tövsiyələr vermişdir.

O da məlumdur ki, altıncı çağırış Milli Məclisi fəaliyyətə başladığı gündən ötən dövr ərzində ölkəmizin ictimai-siyasi həyatında mühüm əhəmiyyətli hadisələr baş vermişdir. Bu dövr müzəffər Azərbaycan Ordusunun tarixi Zəfəri, yeni parlamentin formalaşması, pandemiyaya qarşı mübarizə ilə xarakterizə olunur. İlk növbədə, xalqımızın Vətən müharibəsində qazanılmış Zəfərinə öz səlahiyyətləri çərçivəsində Azərbaycan parlamenti də töhfəsini vermişdir. Belə ki, Qarabağda hərbi əməliyyatların başlandığı gündən Milli Məclis cəbhə bölgəsindəki həqiqətləri, Ermənistanın dinc əhaliyə qarşı təxribatlarını, hərbi əməliyyatların getdiyi ərazidən kənarda yerləşən şəhər və rayonlarımızı artilleriya və raket atəşinə tutması ilə bağlı faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq məqsədi ilə 88 ölkənin parlamentinə və 11 beynəlxalq təşkilata 140-dan çox məktub göndərmişdir. Bir çox ölkələrin Spikerləri, beynəlxalq təşkilatların rəhbərləri ilə danışıqlar aparılmışdır. Ölkəmizdə akkreditə olunmuş səfirlərlə görüşlər keçirilmiş, deputatlarımız xarici media orqanlarında Ermənistanın törətdiyi təxribatlar barədə materiallarla çıxış etmiş, sosial şəbəkələrdə fəallıq nümayiş etdirmişlər. Həmçinin müharibə ilə əlaqədar parlamentimiz tərəfindən bir sıra bəyanatlar, qərarlar və digər sənədlər qəbul olunmuşdur.

Sirr deyil ki, Milli Məclisin qarşısında duran vəzifələr, ilk növbədə, ondan ibarətdir ki, Milli Məclis qanunvericilik sahəsində müasir tələblərlə ayaqlaşan, ölkəmizin reallıqlarına və inkişaf dinamikasına əsaslanan, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən quruculuq işlərinin hüquqi bazasının möhkəmləndirilməsinə xidmət edən təşəbbüslərlə çıxış etsin. Deyə bilərik ki, ötən dövrdə qanunvericilik fəaliyyəti daha da təkmilləşdirilmiş, qanun layihələrinin hazırlanması zamanı daha çox keyfiyyətə diqqət yetirilmiş və bir çox mühüm qanunlar qəbul olunmuş, bəzi qanunlara əlavə və düzəlişlər edilmişdir. Qanun layihələrinin müzakirəsi zamanı parlamentdə təmsil olunan müxalifət partiyalarının rəhbərlərinə və təmsilçilərinə çıxış üçün geniş imkanlar yaradılmış, qanun layihələri ilə bağlı ictimai dinləmələrin keçirilməsinə geniş yer verilmişdir. Elə bu günlərdə geniş ictimaiyyətin də böyük marağına səbəb olan ”Media haqqında” Azərbaycan Respublikası Qanununun layihəsinin parlamentdə müzakirələrini örnək kimi qeyd edə bilərik. Bu layihə ilə bağlı parlamentin komitələrinin birgə iclaslarında keçirilən müzakirələrə Milli Məclisin üzvləri, müvafiq dövlət orqanlarının təmsilçiləri ilə yanaşı, media ictimaiyyətinin çoxsaylı üzvləri, vətəndaş cəmiyyətinin nümayəndələri də qatılmışdır. Milli Məclisdə qanun layihələrinin bu formatda müzakirə olunması ənənəyə çevrilməkdədir.

Həmçinin parlament ölkəmizdə həyata keçirilən siyasi islahatların ruhuna uyğun olaraq, Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinə, siyasi münasibətlərin sağlam zəmində qurulmasına özünəməxsus töhfələr vermişdir.

Möhtərəm Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin ilk iclasında söylədiyi dərinməzmunlu nitqində parlamentin gələcək fəaliyyəti ilə bağlı mühüm tövsiyələrdən biri fəal parlament diplomatiyasının həyata keçirilməsi, ölkə həqiqətlərinin geniş ictimaiyyətə çatdırılmasında bu imkanlardan uğurla istifadə edilməsi olmuşdur. Azərbaycan Milli Məclisi olaraq, ötən dövr ərzində bu istiqamətdə də fəaliyyətimizi genişləndirməyə çalışmışıq. Müxtəlif platformalarda Azərbaycan dövlətinin və xalqının maraqlarını, milli mənafeyi qorumaq Milli Məclisin beynəlxalq sahədə fəaliyyətinin məğzini təşkil edir. Bu məqsədlə təkcə 2021-ci ildə mənim başçılığımla parlament nümayəndə heyətimizin xarici ölkələrə 13, Milli Məclisin sədr müavinlərinin 6, deputatlarımızın 64 səfəri baş tutmuşdur. Həmçinin parlamentdə mənim 1 baş nazir, 3 parlament rəhbəri, 3 xarici işlər naziri olmaqla, ümumilikdə 32 görüşüm olmuşdur. Deputatlarımızın keçirdikləri canlı və onlayn görüşlərin sayı isə 230-a yaxındır. Cari ildə Bosniya və Herseqovina Parlament Assambleyasının Xalqlar Palatasının Sədri cənab Bakir İzetbeqoviç, Türkiyə Böyük Millət Məclisinin Sədri cənab Mustafa Şəntop, Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri cənab Əsəd Qeysər, Koreya Respublikası Milli Assambleyasının Sədri cənab Park Byonq-Soq ölkəmizə rəsmi səfərlər etmişlər. Bu dövrdə Azərbaycan, Pakistan, Türkiyə Parlament Sədrlərinin Bakıda keçirilmiş Birinci Üçtərəfli Görüşünü parlament diplomatiyamızın mühüm uğurlarından hesab etmək olar. Görüşün sonunda imzalanmış Bakı Bəyannaməsi, spikerlərin Şuşaya və işğaldan azad olunmuş digər ərazilərimizə birgə səfərləri parlamentlərarası əlaqələrimizin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da dərinləşməsinə töhfə vermişdir.

Parlamentin əsas funksiyalarından biri də təmsilçiliklə bağlıdır. Milli Məclisə seçilmiş deputatlar öz seçicilərinin maraqlarını təmsil və müdafiə etməlidirlər. Deputatlar seçildikləri dairələrdə fəal iş aparmalı, seçicilərlə daim təmasda olmalıdırlar. İnsanları narahat edən məsələlərin Milli Məclisdə, eləcə də digər dövlət orqanları qarşısında qaldırılması deputatlar qarşısında dayanan ən mühüm vəzifələrdən biridir. Bununla yanaşı, ictimai təşəbbüslər və çağırışlar qanun yaratma prosesində nəzərə alınmalıdır. Düşünürəm ki, ötən dövrdə Milli Məclisin deputatlarının bu istiqamətdə də fəaliyyəti müsbət qiymətə layiqdir.

Bizim hər birimizin fəaliyyəti üçün önümüzdə çox dəyərli örnəklər mövcuddur. Bu örnəkləri möhtərəm Prezident İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva yaradırlar. Onların dövlətə, xalqa sevgisi, milli və dövlətçilik maraqlarını qətiyyətlə, ən yüksək səviyyədə müdafiə etməsi, Azərbaycanın adını yüksəkliklərə qaldırması hesab edirəm ki, nəinki Milli Məclisin üzvləri, hər bir Azərbaycan vətəndaşı üçün örnək təşkil etməlidir.

## Ukraynalı deputat: Prezident İlham Əliyev Vətən müharibəsində qazandığı Qələbə ilə Lider kimi adını tarixə əbədi yazdı



**Azərbaycan Prezidenti İlham Əliyev zəngin savada malik və müdrik dövlət xadimidir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Ukrayna-Azərbaycan Parlamentlərarası dostluq qrupunun həmsədri Valeriy Kolyux deyib.**

Onun sözlərinə görə, Prezident İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycan kifayət qədər inkişaf edib, iqtisadi tərəqqi, mədəni inkişaf və milli birlik əldə olunub.

”Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində qazandığı Qələbə ilə Lider kimi adını tarixə əbədi yazdı. Prezident İlham Əliyevin siyasəti bir çox ölkələr üçün nümunədir. Bu siyasət strateji təfəkkürə, vətənpərvərliyə və Azərbaycan xalqına qayğıya əsaslanır”, - deyə deputat əlavə edib.

Valeriy Kolyux vurğulayıb ki, Azərbaycan ilə Ukraynanın strateji tərəfdaş olmasında Prezident İlham Əliyevin müstəsna xidmətləri var. Bu gün iki ölkə arasında bütün sahələrdə əməkdaşlıq uğurla inkişaf edir.

## “Yeni media mütəxəssislərinin hazırlanması məqsədilə bundan sonra da tədbirlərin keçirilməsi nəzərdə tutulur”




Dövlətimizin başçısının 2021-ci il 12 yanvar tarixli müvafiq Fərmanına əsasən media sahəsində islahatların dərinləşdirilməsinə start verilib. Həmin islahatlar üç istiqamətdən ibarətdir. Birincisi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, ikincisi, media subyektlərinin iqtisadi müstəqilliyinin təmin olunması, üçüncüsü isə media peşəkarlığının artırılmasıdır. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə müsahibəsində Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

Əhməd İsmayılov bildirib ki, gənc jurnalistlər üçün keçirilən bu seminar media peşəkarlığının artırılması məqsədilə Media İnkişaf Agentliyinin və ADA Universitetinin birgə layihəsi çərçivəsində təşkil olunub. İcraçı direktor vurğulayıb ki, bundan sonra da Azərbaycanda yeni media mütəxəssislərinin hazırlanmasının təmin edilməsi məqsədilə mütəmadi tədbirlərin keçirilməsi nəzərdə tutulur. ”Medianın İnkişafı Agentliyinin Nizamnaməsinə uyğun olaraq, gənc jurnalistlərin peşəkarlığının artırılması üçün həm Jurnalistika fakültəsinin tələbələri, həm də ümumiyyətlə, mediaya yeni gələn və ya gəlmək istəyən gənclər üçün belə tədbirlərin, seminarların keçirilməsini təmin edəcəyik”, - deyə Ə.İsmayılov qeyd edib.

# YAP Veteranlar Şurasının

## təşkilatçılığı ilə "Zəfər yolunun davamı: Qarabağda yeni iqtisadiyyat quruculuğu" mövzusunda konfrans keçirilib





















**Dekabrın 23-də Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının təşkilatçılığı ilə Bakı Ali Neft Məktəbində "Zəfər yolunun davamı: Qarabağda yeni iqtisadiyyat quruculuğu" mövzusunda konfrans keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları BANM-də yaradılan şəraitlə tanış olublar.

Konfransda giriş sözü ilə çıxış edən YAP-ın İdarə Heyətinin üzvü, BANM-nin rektoru Elmar Qasımov bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə partiyamız böyük nailiyyətlərə imza atmaqda davam edir. Zəfərimizdən sonra Qarabağda sürətli bərpa və quruculuq işləri aparılır. İşğaldan azad edilən ərazilərdə iqtisadiyyatın inkişaf etdirilməsi döyüş meydanındakı uğurumuzun davamıdır.

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə çıxışında qeyd edib ki, ölkəmiz ötən müddət ərzində sürətlə inkişaf edib, siyasi və iqtisadi stabillik və dayanıqlıq təmin olunub: "Biz ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yolla addımlayaraq bu günə gəlib çatmışıq. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 2020-ci ildə Zəfəri ilə özünün güclü və qüdrətli dövlət olduğunu nümayiş etdirdi. Bizim həm döyüş, həm də informasiya məkanında mübarizəmiz uğurlu oldu".



A.Rəhimzadə postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin aparılmasını və müvəffəqiyyətlə başa çatdırılmasını dövlətimizin prioritet məsələlərindən olduğunu söyləyib. Onun sözlərinə görə, bölgədə iqtisadiyyatın dirçəldilməsi ümumilikdə ölkənin inkişafına və insanlarımızın rifah halının daha da yaxşılaşdırılmasına öz töhfəsini verəcək.

Konfransda məruzə ilə çıxış edən İqtisadi İslahatların Təhlili Kommunikasiya Mərkəzinin Strateji Planlaşdırma və İnkişaf Departamentinin rəhbəri Ayaz Müseyibov diqqətə çatdırıb ki, Azərbaycanda həyata keçirilən iqtisadiyyat BMT-nin həyata keçirdiyi Davamlı İnkişaf Məqsədləri proqramının 17 istiqaməti üzrə müəyyənləşdirilən dayanıqlı inkişaf üzrə aparılır. Qeyd olunub ki, ölkənin iqtisadi inkişafını sürətləndirmək üçün Qarabağa investesiyalar cəlb olunmalıdır və bu proses gedir. "Ağıllı kənd" və "Ağıllı şəhər" layihələri işğaldan azad edilmiş ərazilərimizdən ilk dəfə Zəngilanda reallaşdırılır.

Müasir dövrdə rəqəmsal texnologiyaların əhəmiyyətindən danışan A.Müseyibov Qarabağda həyata keçirilən bərpa və quruculuq işlərinin yüksək ahənglə aparıldığını qeyd edib. Bildirilib ki, infrastruktur yenidən qurulur, yollar çəkilir, nəqliyyat-kommunikasiya xətləri yaradılır.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov Azərbaycanın nailiyyətlərinin əsasında ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin dayandığını bildirib və qeyd edib ki, Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Prezidentimizin dünyada baş verən proseslərə çevik reaksiya verdiyini və qlobal təşəbbüslərlə çıxış etdiyini vurğulayan Ə. Həsənov bildirib ki, cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha böyük zəfərlərə imza atacaq.

YAP-ın Təftiş Komissiyasının üzvü, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov isə deyib ki, işğal dövründə Ermənistan Qarabağın flora və faunasını məhv edib, bu yöndə terror törədib. Onun sözlərinə görə, ermənilərin törətdiyi ekoloji terrorun fəsadları çox böyükdür. Bununla belə, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin həyata keçirdiyi siyasət azad olunmuş ərazilərimizə yeni həyat bəxş edir. Komitə sədri Qarabağda zəngin təbii ehtiyatların olduğunu və bunun ölkəmizin iqtisadiyyatına böyük fayda verəcəyini vurğulayıb.

YAP Veteranlar şurasının üzvü, Auditorlar Palatasının sədri Vahid Novruzov da çıxışında böyük qayıdışla bağlı fikirlərini bildirib. Qazanılan uğurların, ən başlıcası Zəfərimizin əsasında həm də dayanıqlı və davamlı inkişaf olduğunu deyən V.Novruzov qeyd edib ki, aparılan dövlət siyasəti nəticəsində Azərbaycan daha da qüdrətli ölkəyə çevriləcək: "Güclü iqtisadiyyatdan şanlı Qələbəyə gəldik, indi isə gələcəyə inamla addımlamaq və insanların rifah halının yaxşılaşdırılması üçün iqtisadiyyatımızı gücləndirmək, yeni imkanlar axtarmaq lazımdır. Qarabağ zonası bunun üçün ən yaxşı məkandır".



# İlham Əliyev fenomeni: Siyasi varislikdən liderliyə doğru!



Ümummilli Liderimiz, Ulu Öndərimiz Heydər Əliyevin Azərbaycan xalqına tarixi müraciəti zamanı siyasi varisi İlham Əliyevlə bağlı fikirlərində "Mən ona özüm qədər inanıram" kəlamlarını təhlil etdikcə qarşımızda nəhəng bir reallıq mənzərəsi və nəticələr açılır - təsəvvürünüzə gətirin, qısa müddət (1993-2002) ərzində məhv olan, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan, parçalanan, daxili və xarici düşmənlərin əlində məhvə doğru sürüklənən Azərbaycanı ayağa qaldırmaq və onu etibarlı siyasi varisə ötürmək - özü də əsasları hələ kövrək olan, onun möhkəmləndirilməsi üçün üzərində çox işlərin aparılacağı bir dövləti, ölkəni..!

**Əslində, Ulu Öndərimiz həmin tarixi kəlamında irəli sürdüyü fikirlərini, öz ifadələrində də əxz etdirib - "Mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri..."**

Bəli, Azərbaycanın taleyüklü çox işləri hələ tamamlanmamış qalmışdı. İşğal altında inləyən Qarabağ torpaqlarımız, qaçqın və məcburi köçkünlərimizin iztirablı problemləri, Azərbaycanın beynəlxalq aləmdə haqq səsini

> **Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.**
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

ucaltması üçün daha münbit şəraitlərin yaradılması, iqtisadiyyat sahəsində artıq yeni beynəlxalq standartların tələb etdiyi yönün formalaşdırılması, xarici siyasətin daha mükəmməl və praqmatik əsaslara tərəf inkişaf etdirilməsi, vətəndaşların sosial-rifahlarının yaxşılaşdırılması üçün sosial layihələrin hazırlanması və tətbiq edilməsi - eləcə də digər yüzlərlə tələblərin realizəsi qarşıda dayanırdı və Heydər Əliyev də məhz bu amil və faktorların öhdəsindən gələ biləcək şəxsiyyətin bilavasitə Onun siyasi varisi İlham Əliyev olacağına özü qədər, hətta daha çox inanırdı. Və bu gün hər dəfə tarixi müraciəti incələyərkən bir daha şahidi oluruq ki, Ulu Öndərin real siyasi varisi kimi qəbul edilən İlham Əliyevin qarşısında yüksək fəaliyyət perspektivləri, yeni siyasi-iqtisadi, mənəvi-ideoloji üfüqlər açırdı.

Təbii ki, Uca Yaradanımız tərəfindən dünya

> **İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.**
>
> ***Heydər ƏLİYEV***
> ***Azərbaycan xalqının Ümummilli Lideri***

xalqlarına nadir hallarda bəxş edilən Heydər Əliyev kimi fenomenal Şəxsiyyətin peyğəmbərcəsinə olan uzaqgörənliyi sayəsində biz bu gün güclü, qüdrətli və ən əsası, qalib Azərbaycanın vətəndaşları olaraq qürurla, başıucalıqla yaşayır, fəaliyyət göstərir, ölkəmizin inkişafı və tərəqqisi naminə çalışırıq - Dahi Öndər Heydər Əliyevin siyasi varisi Mütərəqqi Lider İlham Heydər oğlu Əliyevin vahidliyi, alternativsizliyi altında!

## Xalq-Lider tandeminin formalaşması və ondan yaranan mütərəqqilik gerçəkliyi

Təbii ki, bu, həm də tarixdə nadir hallarda təzahür edən Xalq - Lider tandeminin qarşısıalınmaz bir gücə çevrilməsinin göstəricisi idi. Ulu Öndər Heydər Əliyevin həyatının son illərində və aylarında Azərbaycan cəmiyyətini, eləcə də ölkəmizi diqqət mərkəzində saxlayan beynəlxalq dairələri dövlətə gələcəkdə kimin rəhbərlik edəcəyi, Onun hakimiyyət irsini və siyasi kursunu kimin davam etdirəcəyi sualı ciddi düşündürürdü. İki əsrin və minilliyin qovşağında bu barədə düşünərkən, hər kəs birinci növbədə, Ümummilli Liderin ən yaxın məsləkdaşı və ən sadiq silahdaşı, Onun həyat və mübarizə yolunun ən istedadlı yetirməsi - İlham Əliyev haqqında düşünürdü. Eləcə də bu, yalnız İlham Əliyevin dünya miqyaslı ictimai-siyasi xadim, böyük dövlət adamı və nəhayət, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin oğlu olması ilə bağlı deyildi, bu, həm də onu sübut edirdi ki, hələ ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq yeni baxışlı və novatorluq qabiliyyətinə malik siyasi Lider kimi İlham Əliyev kifayət qədər böyük siyasi nüfuz qazanmışdı. Xüsusilə də, Azərbaycan dövlətçiliyinin saxlanılması və möhkəmləndirilməsi uğrunda aparılan çətin mübarizədə gənc siyasi Liderə və qəhrəmana daha çox ehtiyac yaranmışdı - belə bir məqamda Heydər Əliyev Azərbaycan xalqına öz alternativsiz siyasi varisini - İlham Əliyevi ən mükəmməl şəkildə təqdim etdi və bu etimadlıq və etibarlıq prinsipi özünü dərhal təsdiq etdi. Misal üçün, İlham Əliyev siyasi meydanda çoxdan olsa da, siyasi prosesləri çoxdan izləsə də öz siyasi bilik və bacarıqlarını elə də asan olmayan siyasi dairələrdə nümayiş etdirməyə başladı. İlham Əliyev ilk olaraq millət vəkili kimi Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri qismində vətənpərvər fəaliyyəti ilə nəzərə çarpdı. Sonradan isə Azərbaycan cəmiyyəti Onu Baş nazir kimi qəbul etdi. İlham Əliyev paralel olaraq Milli Olimpiya Komitəsinin Prezidenti və Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifələrini də icra edirdi.

Yeri gəlmişkən, daha bir məqama toxunaraq qeyd edə bilərik ki, Ulu Öndərimizin layiqli varisi İlham Əliyev həm də ona görə ilk addımlarından güclü oldu ki, O, zamanında mükəmməl təhsil alması ilə yanaşı, bir neçə aparıcı xarici dildə sərbəst danışmağı bacarırdı.

İlham Əliyev beynəlxalq siyasi və ictimai mədəniyyət faktorları fonunda istənilən çevrələrdə ani təmasa girməyi, digərləri qarşısında özü barədə müsbət imic və sözükeçərlik prinsiplərini formalaşdırmağı dərindən bilirdi və eyni zamanda, dünyanın müasir düşüncə texnologiyalarına ən yüksək səviyyədə yiyələnmişdi. Onunla hər hansı bir diskusiyada, ən çətin müzakirələrdə rəqabət aparmaq heç də asan məsələ deyildi və bu gün də biz həmin reallığı müşahidə edirik. İlham Əliyevin müsahibələri, görüşləri və çıxışları fonunda Onun liderlik keyfiyyətləri isə hər birimizdə sonsuz qürur doğurur, hədsiz fərəh hissləri yaradır. Lakin biz bu barədə məqalənin sonrakı hissəsində daha dərindən təhlillərimizi aparacağıq...





Beləliklə, həmin dövrdə - 2002-2003-cü illərdə Azərbaycanda hakimiyyətə can atan qüvvələrin böyük bir hissəsi, əvvəllər teztez deyildiyi kimi, adi bir namizədlik dissertasiyası müdafiə edə bilməmiş aspirantlar, yaxud dissertantlar idilər. Onların nə zamansa sistemli, ardıcıl bir iş görə biləcəklərinə inanmaq mümkün deyildi. Məhz belə bir tarixi şəraitdə Ümummilli Lider 2003-cü ilin prezident seçkilərinin həlledici dövründə canından artıq sevdiyi xalqına müraciətlə bildirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Xalq 1993-cü ildə Heydər Əliyevi yenidən özünün alternativsiz rəhbəri olaraq ali hakimiyyətə tələb edəndə nə qədər ağıllı, təkidli, iradəli hərəkət etmişdisə, 2003-cü ildə İlham Əliyevin Şəxsində öz yeni Prezidentini - yeni Liderini seçəndə də o səviyyədə mübarizlik və müdriklik göstərdi - 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə xalq öz iradəsinə söykənərək Heydər Əliyevin layiqli varisi İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə onu özünə yeni Prezident seçdi. Prezident İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti çox keçmədən öz müsbət nəticələrini verdi. Bütün bunların təməlində dayanan əsas mühüm nüanslar isə aşağıda qeyd etdiyimiz məqamlardır.

Beləliklə, bu taleyüklü və böyük hadisə bütün dünyaya göstərdi, sübut etdi ki:

Birincisi, Azərbaycan xalqı Ümummilli Liderin milli dövlət quruculuğu siyasətinin perspektivliliyinə, tərəqqisinə dərindən inanır.

İkincisi, İlham Əliyev ölkə daxilində və beynəlxalq aləmdə məhz həmin siyasətin daşıyıcısı və davamçısı kimi qəbul edilir.

Üçüncüsü, yeni Liderinə inanan xalq gələcəkdə milli dövlət quruculuğunun qarşısına çıxa biləcək qaçılmaz problemlərin həllində Onun siyasi intellektinə, uzaqgörənliyinə və əyilməz iradəsinə qətiyyən şübhə etmir.

Və ən əsası, sonuncusu - Xalq-Lider tandeminin formalaşması və ondan yaranan mütərəqqilik gerçəkliyi özünü bariz şəkildə isbatlamış olur.

Milli ideologiya təfəkkürünün təntənəsi

Beləliklə, bu tandemlərdən doğan reallıq nəticəsində Azərbaycan xalqı dövlətçiliyin xilaskarının missiyasından lazımınca bəhrələnərək öz varlığını, Vətənin müstəqilliyini qorudu və milli dövlətinin quruculuğunun davamında öz sözünü dedi. Prezident İlham Əliyevin müasir azərbaycanlı təfəkküründə Vətən, xalq təəssübkeşliyi faktorunun yeni əsaslarını qurdu, türkçülüyə-azərbaycançılığa xas olan mənəvi-əxlaqi dəyərləri gücləndirməyə başladı, Qərb və Avropa ictimai-siyasi modellərinin yalnız xalqımıza, milli dəyərlərimizə xas olan münasib formalarındakı inteqrasiya prosesinə şərait yaratdı. Bütün bunlar isə əlbəttə ki, milli-mənəvi, ideoloji, mədəni, elmi inkişafımıza münbit zəminlər yaratdı. Söz yox ki, bu kimi məsələlərdə İlham Əliyev öz gücünü bilavasitə xalqından aldı və xüsusilə ziyalıların, gənc nəslin Ona olan inamlarını ən ali səviyyədə doğrultmağa başladı.





Əminliklə vurğulaya bilərik ki, Prezident İlham Əliyev türk və islam dünyasının öndə gedən liderlərindən biri kimi böyük nüfuz sahibi olduğunu əməli şəkildə sübuta yetirib. Azərbaycan rəhbərinin müsəlman xalqlarına qarşı müəyyən beynəlxalq dairələrdə aparılan antihumanist və ədalətsiz kampaniyalara dəfələrlə ən yüksək tribunalardan öz etirazını bildirməsi, Azərbaycanın bir nümunəvi müsəlman ölkəsi olaraq inkişafı buna sübutdur.

Azərbaycan dövlətinin başçısı kimi İlham Əliyevin şəxsiyyəti modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir və bu birləşmə amilinin təməlində dayanan mühüm faktor milli ideologiya təfəkkürünün təntənəsi olaraq qiymətləndirilir.

## 2003-cü ildən başlayan tərəqqi prosesi: İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi, uzaqgörənliyi və rasional varislik modeli

Danılmaz həqiqətdir ki, Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən Azərbaycanın hərtərəfli və sürətli inkişaf tarixini yazmağa başladı.

Şübhəsiz, sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi üstünlüyün, hərtərəfli tərəqqinin təməlində də inkişaf strategiyası, onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. O da sirr deyil ki, dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin Liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi, ümumilikdə isə rasional varislik modeli sayəsində mümkün olub. Bu prinsiplərə sadiqliyini qoruyub saxlayan Prezident İlham Əliyev siyasi innovasiyalara, dövrün çağırışlarına tez uyğunlaşmaq bacarığı, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün əsl mükəmməl Lider olduğunu isbatlayıb.

Xalqın öz liderinə inam və etimadı görülməmiş dərəcədə artdı. Məhz buna görə də 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı.

Ümummilli Liderin ən layiqli varisi olan İlham Əliyevin 2003-cü ildə Prezidentlik fəaliyyətinə başlaması Azərbaycanın tərəqqi və inkişaf yolu ilə irəliləməsində yeni mərhələ olmuşdur. Həmin il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, ölkədə sabit siyasi sistemin, çoxşaxəli iqtisadi strukturun intensiv formalaşması ili oldu. Məhz o vaxtdan başlayaraq respublikada demokratikləşmə prosesləri genişlənmiş, ölkəmizin dünya transformasiya proseslərinə inteqrasiyası daha intensiv xarakter kəsb etmiş, milli iqtisadiyyatın daha da inkişafı üçün mühüm sosial-siyasi baza yaranmışdır. İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olmuş, səmərəli intensiv islahatlar aparılmışdır.

Müstəqil Azərbaycan dövlətinin yeni lideri İlham Əliyevin əsaslı və zəruri islahatları ölkənin real iqtisadi, sosial, siyasi vəziyyətini dəqiqliklə nəzərə almaqla yanaşı, cəsarətliliyi ilə də seçilir. Onun məhz yenilikçi idarəetmə texnologiyalarına ardıcıl, inamlı müraciətinin nəticəsidir ki, respublikanın iqtisadi inkişafı indiyə qədər görünməmiş bir sürət və miqyas almış, ölkədə sağlam sosial-siyasi, mənəvi- mədəni əhval-ruhiyyə yüksəlmişdir. Bu gün ən qərəzkar, ən aqressiv, hətta ən dağıdıcı bir müxalif qüvvə belə dövlət başçısı İlham Əliyevin qazandığı çoxspektrli uğurları görməmək, yaxud inkar etmək gücündə deyil.

Ölkədə abadlaşan, şəhərlər, kəndlər, çəkilən yollar, yaradılan təhsil və elm müəssisələri, çoxsaylı müəssisələrdə tətbiq edilən müasir idarəçilik texnologiyaları, dünya standartları ilə müqayisə olunan müxtəlif təsisatlar, idmanda, mədəniyyətdə indiyə qədər bu miqyasda görünməmiş beynəlxalq uğurlar yaxın gələcəkdə əldə ediləcək növbəti uğurların, qələbələrin və zəfərlərin anonsunu verirdi.

*Ardı Səh. 10*

# İlham Əliyev fenomeni: Siyasi varislikdən liderliyə doğru!

Əvvəli Səh. 9

İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə həm iqtisadi, həm siyasi, həm də mədəni sahələrdə beynəlxalq əlaqələrin, başqa sözlə, Azərbaycan- Dünya münasibətlərinin zəngin təcrübəsi qazanılmasıdır. Bu isə ilk növbədə, o deməkdir ki, Azərbaycan dünyanın mərkəzi olduğunu sübuta yetirir. Biz bunu ölkəmizdə həyata keçirilən yüzlərlə beynəlxalq tədbirlərdə də müşahidə etmişik və etməkdəyik. Azərbaycanın regionda, ümumən, beynəlxalq aləmdə söz sahibi olması da bütün bunlara dəlalət edir. Bəli, dünyanın aparıcı gücləri öz problemlərini Azərbaycanda həll edir, Azərbaycanın münsiflik rolu sayəsində nəhəng razılıqlar əldə edilir, sazişlər imzalanır, qərarlar verilir. Əlbəttə ki, bütün bunlar İlham Əliyevin siyasi varislik missiyasının təntənəsini isbatlayan tarixi sübutlar, tarixi nailiyyətlər və tarixi həqiqətlərdirlər. İlham Əliyevin Liderlik nümunəsi bir etalona çevrilib və özünəməxsus dinamizmi ilə zənginliyi ilə seçilir.




## Qafqaz regionunun Lideri

Azərbaycan rəhbəri İlham Əliyev bu gün Qafqaz regionunun şəriksiz lideri sırasında ön sırada dayanmaqdadır və fakt budur ki, Onun razılığı olmadan bu bölgədə heç bir ciddi iqtisadi layihələrə start verilə bilməz. Prezident İlham Əliyev Azərbaycan dövlətinin başına təkcə Ulu Öndərin varisi, davamçısı, onun məktəbinin ardıcılı kimi yox, həm də yenilikçi - yeni zamanın yeni lideri olaraq gəlmişdir. O, idarəçiliyin elə demokratik və optimal yolunu seçmişdi ki, hər bir zəkalı ölkə vətəndaşının dövlətçiliyin inkişafında yeri var və dövlət quruculuğunda bu yer hər kəsin məhz vətənpərvərliyinə, biliyinə, sağlam düşüncəsinə, qabiliyyətinə görə müəyyənləşmişdi. Təbii ki, bunların da əsasında Azərbaycanın əsaslı inkişafı reallığı dayanır.

Ötən illər ərzində milli iqtisadiyyatımız məhz Onun qətiyyəti və novator idarəçiliyi sayəsində dəfələrlə artıb. Bu, dünyada ən sürətli inkişaf göstəricisidir. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 18 illik bir müddətdə xalqın böyük etimadını qazanaraq bir daha sübut etdi ki, Azərbaycanı həm daxili, həm də beynəlxalq miqyasda yalnız o təmsil edə bilər. Ötən 18 ildə bir tərəfdən mövcud ənənələr müdafiə olundu, digər tərəfdən isə dövlət idarəçiliyinə zəruri novatorluq gətirildi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur Onun təhtəlşüur zəkasının təcəssümü, milli tərəqqi ideyalarının təzahürüdür.



## Müzəffər Ali Baş Komandan, Fateh Sərkərdə!

Ötən 18 ilin ən pik yüksəkliyində söz yox ki, 30 ilə yaxın dövr ərzində işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi amili dayanır. Prezident, Müzəffər Ali Baş Komandan, Fateh Sərkərdə cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq və qürur salnaməsinə qızıl hərflərlə yazıldı. Dövlətimizin başçısı 200 ildən sonra Azərbaycanın müasir tarixinə elə bir silinməz imza qoydu ki, bu gün bütün dünya həmin reallığı heyranlıqla, qibtə ilə müşahidə edir. Çünki İlham Əliyev fenomeni Azərbaycanı qalib ölkəyə, xalqımızı isə qalib xalqa çevrildi. Nəticədə qazanılmış Zəfər sayəsində artıq regionumuzda yeni çağırışlar və reallıqlar yaranıb.

Bu xüsusda biz Ordumuzun, Silahlı Qüvvələrimizin sürətli inkişafından danışmaya bilmərik. Belə ki, ötən dövrlər ərzində Azərbaycan Ordusunun döyüş qabiliyyəti dəfələrlə artırıldı, Silahlı Qüvvələrin maddi-texniki bazası kifayət qədər möhkəmləndirildi, bu sahədə ardıcıl tədbirlər görüldü və bu gün də həmin tədbirlər görülməkdədir. Məhz Ali Baş Komandanının qüdrətli sərkərdəliyi ilə 2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq haqq savaşı başladı və dünyanı ardıcıllıqla heyrətə salan hərbi uğurlar qazanıldı, şəhər və kəndlərimiz düşmən tapdağından azad edildi. 30 ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 gün ərzində azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. Bax, bu məqamda İlham Əliyevin tarixi fikirləri - Ulu Öndər Heydər Əliyevin Ata vəsiyyətini yerinə yetirdiyini vurğulaması hər bir azərbaycanlının qəlbini riqqətə gətirdi.

*Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!*

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşa işğaldan azad olunan gün - noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində verdiyi bu xoş xəbər Azərbaycanı ayaq üstə qaldırdı. İnsanlar küçələrə, meydanlara axışaraq qürur və böyük sevinc hisslərini paylaşır, bir-birinə gözaydınlığı verirdilər.*

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Beləliklə, dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini - Müzəffər Sərkərdəlik məharətini üzə çıxardı. O, əməliyyatlara şəxsən nəzarət edir, döyüşən Orduya tapşırıqları birbaşa özü verirdi. Qələbəni şərtləndirən mühüm amillərdən biri də Azərbaycan Prezidentinin diplomatiya müstəvisində çevik siyasəti oldu.

Lakin Vətən müharibəsi dövründə dövlətimizin başçısı İlham Əliyev xarici KİV-lərə 30-dan çox müsahibə verdi ki, bu da münaqişə ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında mühüm rol oynadı. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb.

Ötən 18 ilə nəzər salsaq görərik ki, dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. İqtisadi və sosial sahədə qazanılmış bir neçə göstəricini diqqətə çatdırmaq kifayətdir. Ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, yoxsulluq 49 faizdən təxminən 5 faizə enib, 2 milyondan çox yeni iş yerləri yaradılıb, əməkhaqları, pensiyalar dəfələrlə artırılıb. Siyasi, iqtisadi imkanlarının genişləndirilməsi Azərbaycanın beynəlxalq arenadakı mövqelərini möhkəmləndirib.

Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaşı kimi tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizi, TAP layihəsi, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi energetika və nəqliyyat mərkəzinə çevirib.

Fakt budur ki, Azərbaycan xalqı həmişə, hər zaman öz Liderinə güvənib və inanıb, Ona arxa, dayaq olub. Artıq tam əminliklə vurğulaya bilərik ki, məhz Xalq-Lider möhkəm təməlləri sayəsində Prezident İlham Əliyev Azərbaycanı bundan sonra da öz arxasınca Zəfərlərə doğru aparacaq!

***Bəhruz QULİYEV,***
***"SƏS" qəzetinin baş redaktoru,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# Zəfər zirvəsindən son 18 ilə baxış

**Artıq daha bir ilin sonuna saylı günlər qalır. İllər bir-birini əvəzlədikcə, zaman məsafəsi artdıqca keçilən yolun düzgün təhlili və dəyərləndirilməsi üçün daha geniş imkanlar yaranır. Bir yazı çərçivəsində son 18 ilin uğurlarını əhatə etmək mümkün olmasa da "18 il ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycana nə verdi" sualı ilə 18 illik yola çıxaraq tariximizə yazılan önəmli hadisələrin qısa xronologiyasını təqdim etməklə dünənimizə baxış fonunda gələcəyimizin ümumi mənzərəsini təqdim etmək istədik.**

## Ulu Öndər Heydər Əliyev irsinin ən layiqli davamçısı

Müstəqilliyimizin bərpasının 30 ilini mərhələlərə bölsək ilk illər tariximizin qara səhifəsi kimi təhlil edilir. İkinci mərhələ ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından, üçüncü mərhələ Böyük Yolun davamı-Ümummilli Liderin 2003-cü ildə xalqa inam və etimadın ünvanını göstərməsindən başlanan dövrdür.

Müstəqilliyimizin bərpasının ilk illərində yaşananlar, Ümummilli Liderin hakimiyyətə qayıdışını şərtləndirən amillər hər kəsin yaddaşında olmaqla yanaşı, gələcək nəsillərin dolğun məlumatlandırılması üçün tarix dərsliklərində də öz əksini tapıb. Son 18 ilin uğurlarına yol açan məhz ulu öndər Heydər Əliyevin düşünülmüş və gələcəyə hesablanmış siyasəti nəticəsində yaradılan möhkəm təməldir. 1993-2003-cü illəri əhatə edən dövrdə görülən işlərin miqyası o qədər geniş, müstəqil Azərbaycanın gələcəyi ilə bağlı hədəflər o qədər böyük idi ki, 2003-cü ildən sonrakı mərhələdə hakimiyyətin etibarlı əllərdə olması olduqca vacib idi. Prezident İlham Əliyev 17 oktyabr 2016-cı ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda həmin dövrün mənzərəsini belə təqdim etmişdir: "2003-cü il, hesab edirəm ki, müstəqil tariximiz üçün də xüsusi əhəmiyyət daşıyır. Çünki 2003-cü ildə ölkənin bundan sonra hansı yolla gedəcəyi haqqında Azərbaycan xalqı öz qərarını verdi: Heydər Əliyev siyasətimi davam edəcək, yoxsa ki, yenə Azərbaycan bəlalarla, fəlakətlərlə üzləşəcək?! Azərbaycan xalqı həmişə olduğu kimi, müdrikliyini göstərərək Heydər Əliyev siyasətinə öz səsini verdi. Onu da qeyd etməliyəm ki, 1993-cü ildə AXC-Müsavat qruplaşmasının iflasının əsas mənbəyi Azərbaycan xalqının iradəsi olmuşdur. Cəmi bir il xalq bunların yarıtmaz fəaliyyətinə dözə bilmişdir və Azərbaycan xalqı bu ləkəni tariximizdən yumaq üçün o hakimiyyətə son qoydu. O vaxtdan bu günə qədər o hakimiyyət tarixin zibilxanasındadır." Eyni zamanda, bu fikirlərin davamı olaraq qeyd etmişdir ki, 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Heydər Əliyev siyasəti davam etdirilir. Bu, müstəqilliyimizin üçüncü dövrüdür. Bu üçüncü dövr ikinci dövrün məntiqi davamıdır.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına 1 oktyabr 2003-cü il tarixli müraciətində bu çağırışı etmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu çağırışdan və xalqın 2003-cü ildə keçirilən prezident seçkilərindəki seçimindən bizləri 18 illik zaman ayırır. Bu illərin Azərbaycanın həyatına gətirdiyi yeniliklər, dünyanı təkmil inkişaf modelinə söykənən uğurları ilə heyrətləndirməsi xalqın seçimində yanılmadığını təsdiqləyir. Məhz bu illər ərzində güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın qüdrətinə çevrildi. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyası harada yaşamasından asılı olmayaraq bütün azərbaycanlıların həyatına daxil oldu. Məhz görülən uğurlu işlərin nəticəsi olaraq Azərbaycan xalqı ötən 18 ildə keçirilən 2008, 2013 və 2018-ci prezident seçkilərində cənab İlham Əliyevə etimad göstərərək bugünkü qalib Azərbaycanın daha da güclənməsinə, qüdrətlənməsinə yol açmışdır.



*Vüqar Rəhimzadə,*
*Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru*

## Davamlı inkişafı təmin edən fundamental nailiyyətlər

2003-cü ildə açıqlanan hədəflər sırasında Azərbaycanın dayanıqlı iqtisadi inkişafının təmin edilməsi əsas yer tutdu. Dövlət başçısı İlham Əliyev "Neft kapitalını insan kapitalına çevirək!" tezisini irəli sürdü və bu istiqamətdə mühüm addımlar atdı. İqtisadi artımın neft sektorundan asılılığını minimuma endimək üçün regionların malik olduğu imkanlardan maksimum bəhrələnmək məqsədilə Regional inkişaf proqramları təsdiqləndi və icra edilir. Bununla da regionlarımızın yeni mənzərəsi yaradıldı. Prezident İlham Əliyev Prezidentlik fəaliyyətinin ilk dövründə 24 noyabr 2003-cü lil tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman imzalamışdır. Bunun ardınca regionların sosial-iqtisadi inkişafına dair 2004-2008-ci illəri əhatə edən ilk Dövlət Proqramı təsdiqləndi. Bu sənəd Azərbaycanın müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratdı, tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirdi. Birinci proqramda əsas hədəflərdən biri 600 min yeni iş yerinin yaradılması idi. Təbii ki məqsəd işsizlik probleminin həlli, insanların məşğulluğunu təmin etmək idi. Sənədin icrasının ilk illərində nəzərdə tutulan sayda yeni iş yerinin yaradılması növbəti mərhələlər üçün yeni hədəflərin müəyyənləşdirilməsini zərurətə çevirdi. Prezident İlham Əliyev 14 aprel 2009-cu il tarixli Fərmanı ilə II Dövlət Proqramını- "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramını", 27 fevral 2014-cü il tarixli Fərmanı ilə III "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiqlənmişdir. Dövlət proqramlarının icra olunduğu 2004-2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Hazırda "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" uğurla həyata keçirilir. Sənədin icra edildiyi iki ilin sosial-iqtisadi göstəricilərinin qənaətbəxş olması bölgələrimizin simasından, vətəndaş məmnunluğundan daha aydın görünür.

Təbii ki, qeyri-neft sektorunun uğurlu inkişafı Azərbaycanın neft-qaz sektorunda qazandığı uğurlara əsaslanır. Bunun üçün ölkəmizin son 18 ildə enerji sektorunda qazandığı uğurların xronologoyasına diqqət yetirmək kifayətdir. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı. 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Bu gün ulu öndər Heydər Əliyevin adını daşıyan BTC təkcə Azərbaycan üçün deyil, ümumilikdə beynəlxalq aləmdə enerji təhlükəsizliyi sistemi və neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən dövlətlər üçün də müstəsna əhəmiyyət kəsb edən bir layihədir. Azərbaycan neftinin Ceyhan terminalına məhz 28 May- Respublika Günündə çatmasının öz rəmzi mənası olduğunu bildirən dövlət başçısı İlham Əliyev xalqa təbrikində bu mühüm məqamı da xüsusi qeyd etmişdir ki, "Əsrin müqaviləsi" imzalanmasaydı, bu gün Azərbaycanın iqtisadi imkanlarını, beynəlxalq münasibətlər sistemində yerini və rolunu təsəvvür etmək çətin deyildi. Prezident İlham Əliyev dövlət müstəqilliyimizin qorunmasında "Əsrin müqaviləsi"nin böyük rolu olduğunu qeyd etmişdir.

2017-ci ildə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasilatın pay bölgüsü haqqında yeni Saziş imzalandı. Bununla da, "Azəri-Çıraq-Günəşli" nəhəng neft yataqları blokunun işlənilməsində yeni dövr başlandı. "Yeni əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın neft strategiyasının yeni mərhələsinin əsasını qoydu.

Tarixən neft ölkəsi kimi tanınan Azərbaycan, eyni zamanda, qaz ixracatçısıdır. 2003-2018-ci illərdə qaz sektorunda əldə olunan uğurlara nəzər salaq. 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin iyirmi illiyində Cənub Qaz Dəhlizi layihəsinin təməlqoyma mərasimi keçirildi. 4 il sonra, 2018-ci il mayında Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu. Həmin ilin iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP - Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim keçirildi. 2019-cu il noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin rəsmi açılışı oldu. 2020-ci il dekabrın 31-də TAP layihəsi tamamlanaraq istifadəyə verildi. Qısa xronologiya ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının son 18 ildə Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın enerji sektorunun bu günü və gələcəyi üçün hansı uğurlara imza atıldığının aydın mənzərəsini yaradır. Nəzərə alsaq ki, hər bir ölkənin inkişafında iqtisadi tərəqqi əsas faktordur, bu halda uğurlarımızın önəmi daha aydın görünür. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və iqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, mühüm tranzit qovşağı kimi tanınır və nüfuz qazanıb.

Azərbaycanın uğurları beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilir. Dünya Bankının hesabatlarında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi kimi yer alır. Genişmiqyaslı islahatlar nəticəsində Azərbaycanda münbit sərmayə iqlimi yaradılmışdır. Azərbaycan iqtisadiyyatına 280 milyard dollar həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir. Bu, ölkəmizin bu gününə və gələcəyinə inamın təqdimatıdır.

## 18 il demokratik təsisatların inkişafı, milli həmrəyliyin, sağlam əməkdaşlıq mühitinin və siyasi dialoqun təşviqi baxımından diqqətçəkəndir

Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev iqtisadi və siyasi islahatların vəhdətliyinin təmin edilməsi üçün mühüm addımlar atır. Daim bu məqam önə çəkilir ki, elə ölkələr var ki, demokratik inkişaf baxımından yüksək səviyyədədir, amma iqtisadi tərəqqidən söhbət gedə bilməz. Elə ölkələr də var ki, iqtisadi inkişaf yüksəkdir, demokratiyanın inkişafından danışmaq çətindir. Amma Azərbaycan müsbət mənada hər iki baxımından diqqətdədir.

Ölkəmizdə demokratikləşmə prosesi sadəcə bir şüar, niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün əsasdır. Dövrün, zamanın tələbləri islahatların davamlı aparılmasını vacib vəzifə kimi müəyyən edir. Dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycanın dayanaqlı inkişafının əsasıdır.

Ölkə Prezidenti İlham Əliyev dövlət və cəmiyyətin inkişafı naminə sağlam əməkdaşlıq mühiti yaratdı. Atılan addımlarda bu reallıq öz əksini tapdı ki, bu əməkdaşlıq daha çox ümummilli məsələlərdə daha vacibdir. Dövlət başçısı bu çağırışı etdi: "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var."

Prezident İlham Əliyevin bu çağırışı ulu öndər Heydər Əliyevin "Nə qədər partiya olur olsun, onların hamısı bir məqsədə-Azərbaycanın müstəqilliyini qorumaq, torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir" fikrinin davamı kimi dəyərləndirildi. Son 18 ildə siyasi partiyaların əhəmiyyətinin artırılması, demokratiyanın inkişafı, iqtisadi azadlıqların bərqərar olması və ölkəmizin güclənməsi həyata keçirilən islahatların strateji hədəflərinə çevrilib. İqtidar-müxalifət münasibətlərinin sağlam təməllər üzərində inkişaf etdirilməsi Prezident İlham Əliyevin dövlət siyasətini xarakterizə edən əsas göstəricilərdən biridir. Prezident İlham Əliyevin tapşırığı əsasında üzvlərinin sayından, ölkə ərazisini əhatə vəziyyətindən, siyasi çəkisindən və hər hansı digər amildən asılı olmayaraq ölkədəki siyasi partiya rəhbərləri ilə keçirilmiş davamlı görüşlər demokratik ənənələrin şaxələnməsinə xidmət edən müsbət təcrübədir. Ölkədə aparılan islahatlar kursunun tərkib hissələrindən biri kimi 2019-cu ildə Prezident Administrasiyasında yeni Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin yaradılması da bu məqsədə xidmət edir. Şöbənin müdiri Ədalət Vəliyev mütəmadi olaraq siyasi partiyaların rəhbərləri ilə görüşlər keçirir, aktual məsələlər ətrafında fikir mübadiləsi aparır. Ölkədə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyətinin siyasi dialoq proseslərinin fəal iştirakçıları olması faktı siyasi həmrəyliyin təzahürüdür. Görülən işlərin məntiqi nəticəsidir ki, iqtidar-müxalifət dialoqu artıq ölkəmizin gündəlik siyasi təcrübəsinə daxil olmuş və davamlı şəkildə inkişaf edir.

Bu birlik, həmrəylik dünyaya səs salan 44 günlük İkinci Qarabağ savaşında özünü daha aydın nümayiş etdirdi. 50-dən artıq siyasi partiya dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasətə dəstəklərini və onun ətrafında birləşdiklərini imzaladıqları birgə Bəyanatda ifadə etdilər. Eyni birlik bu ilin iyun ayında Qarabağın tacı Şuşanın şahidlik etdiyi Şuşa Bəyannaməsinin imzalanmasında da nümayiş olundu. 50-dən artıq siyasi partiya iki qardaş ölkənin müttəfiqliyinin təsdiqi olan Şuşa Bəyannaməsinin imzalanmasına dəstəklərini ifadə edən Bəyanatı imzaladılar.

**Ardı Səh. 12**

# Zəfər zirvəsindən son 18 ilə baxış

Əvvəli Səh. 11

Son 18 ildə ölkəmizdə demokratik islahatların dərinləşdirilməsi əsas fəaliyyət istiqamətlərindən biri olub. İnsan hüquq və azadlıqlarının qorunması, yeni müdafiə mexanizmlərinin müəyyənləşdirilməsi, azad mətbuatın inkişafı, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində mühüm addımlar atılıb. İnsan hüquqlarının müdafiəsi sahəsində aparılan islahatların davam etdirilməsi məqsədilə Prezident İlham Əliyevin 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi, bunun davamı olaraq ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın uğurlu icrası, 18 iyun 2007-ci il tarixli Sərəncamla İnsan Hüquqları Gününün təsis edilməsi bu reallığın təsdiqidir ki, insan amili dövlət siyasətinin əsasında dayanır. Ulu öndər Heydər Əliyevin siyasi kursuna sadiqlik son 18 ildə humanizm prinsiplərinə söykənərək imzalanan əfv Sərəncamlarından, həmçinin qəbul olunan Amnistiya Aktlarından da aydın görünür. 1995-ci ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan Konstitusiyamıza 2003-cü ildən bu günədək iki dəfə əlavə və dəyişikliklərin edilməsi məqsədilə ümumxalq səsverməsinin keçirilməsi də insan amilinə verilən dəyəri ortaya qoyur.

Bu gün ölkəmizdə söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Azərbaycan KİV-lərin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqedə dayanır. Ölkəmizdə 5 mindən artıq kütləvi informasiya vasitəsi dövlət qeydiyyatına alınıb. Xeyli sayda jurnalist təşkilatları və ictimai birliklər fəaliyyət göstərir. Sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır. Ölkəmizdə internet azaddır, heç bir məhdudiyyət yoxdur. Ümumilikdə demokratik islahatlar Azərbaycanın dününinin, bu gününün və gələcəyinin əsası kimi dəyərləndirilir və davamlığı təmin edilir.

## Yeni Azərbaycan Partiyası ölkədə siyasi sistemin təkmilləşdirilməsində mühüm rol oynayır

Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, son 18 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən Yeni Azərbaycan Partiyası qəbul etdiyi qərarları, irəli sürdüyü təşəbbüsləri ilə daim ölkəmizin inkişafına, siyasi istemin təkmilləşdirilməsinə öz töhfələrini verir. Yeni Azərbaycan Partiyasının 2005-ci il 26 mart tarixində keçirilən III Qurultayında Sədr seçilən Prezident İlham Əliyevin rəhbərliyi ilə partiyanın bu illər ərzində keçdiyi inkişaf yolu göz qabağındadır. Məhz partiyanın ölkə daxilində, eyni zamanda hüdudlarından kənarda qazandığı nüfuza əsaslanaraq dövlət başçısı İlham Əliyev bildirir ki, Yeni Azərbaycan Partiyası nəinki ölkənin, regionun aparıcı siyasi təşkilatıdır. Yeni Azərbaycan Partiyasının son illərdə ölkədə həyata keçirilən islahatlar kursunun dərinləşməsinə töhfə vermək üçün irəli sürdüyü təşəbbüslərə, qəbul etdiyi qərarlara diqqət yetirmək kifayətdir. 2019-cu ilin sonlarında islahatların qanunverici orqanda da öz əksini tapması üçün parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış edən Yeni Azərbaycan Partiyasının bu qərarı təqdir edildi və Prezident İlham Əliyevin Sərəncamı ilə 9 fevral 2020-ci il tarixə növbədənkənar parlament seçkiləri təyin edildi. Yeni formalaşan parlament siyasi partiyalar arasında hazırda mövcud olan sağlam dialoq mühitinin təqdimatında da əhəmiyyətli rol oynadı.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 2021-ci ildə YAP-da köklü islahatlara başlanıldı. Tarixi Zəfərimizin yaratdığı reallıqlar fonunda 2021-ci ilin 5 mart tarixində VII Qurultayını keçirən Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi təsdiq olundu və bununla da partiya Sədrinin Birinci müavini vəzifəsi təsis edildi. Yeni tərkib formalaşdı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədrinin Birinci müavini təyin edilməsi qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərə yüksək səviyyədə nail olmağa əsas yaradır. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, YAP Sədrinin Birinci müavini Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində Zəfərimizin yaratdığı yeni reallıqların qarşıya qoyduğu vəzifələr zamanında uğurla icra ediləcək, Azərbaycanın qarşısında geniş imkanlar açılacaq, azadlığına qovuşmuş torpaqlarımız cənnət məkana çevriləcək. Yeni Azərbaycan Partiyasının hər bir üzvü görülən işlərə töhfəsini vermək üçün səylə çalışır, Heydər Əliyev ideyalarının təbliğatçısı olmaqdan qürur hissi keçirir. Partiya 30 illik yubileyinə yeni qərarları ilə qədəm qoydu.

## Qalib ordu və mübariz gənc nəsil formalaşdırıldı

Hər bir dövlətin qarşısında dayanan əsas vəzifələrdən biri ordu quruculuğudur. Müharibə şəraitində yaşayan bir ölkə üçün isə güclü, qüdrətli ordunun olması mütləqdir. Məhz bu baxımdan, 2003-cü ildən Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev ilk gündən ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə xüsusi diqqət göstərdi. Ən əsası hökumət qarşısında bu vəzifə qoyuldu ki, Azərbaycanın hərbi büdcəsi Ermənistanın ümumi büdcəsinə bərabər olmalıdır. Son 18 ilin uğurları bu vəzifənin də uğurlu icrasını təsdiqlədi. Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında qərarlaşıb. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, döyüş ruhunun artırılması istiqamətində mühüm addımlar atdı. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunur. Azərbaycan öz zavodlarında istehsal etdiyi hərbi təyinatlı məhsullarla ordumuzu əhəmiyyətli dərəcədə təchiz edə bilir. Silahlı Qüvvələr Günündə keçirilən hərbi paradlar, Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq müdafiə sərgiləri ordumuzun malik olduğu imkanların təqdimatında əhəmiyyətli rol oynayır. Milli Ordumuzun nizam-intizamı, təchizatı ilə qürur duyan Azərbaycan xalqı əmin idi ki, torpaqlarımızın işğaldan azad olunacağı gün uzaqda deyil.

Bu mühüm məqamı da xüsusi qeyd edilməlidir ki, orduya qayğı, döyüş qabiliyyətinin artırılması vacib amillərdir. Əlbəttə ki, bu amillər sırasında vətənpərvərlik, torpağa bağlılıq da əsas yer tutur. Ölkə Prezidenti daim hər bir hərbi hissədə ideoloji tərbiyənin yüksək səviyyədə təşkil edilməsini qarşıya mühüm vəzifə kimi qoyur. Bildirir ki, buna bütün rəhbər heyət cavabdehlik daşıyır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda böyüməli, müstəqilliyin qədrini bilməlidirlər.

44 günlük İkinci Qarabağ müharibəsi gənclərimizin Vətən, torpaq sevgisinin göstəricisidir. Prezident İlham Əliyevin son çıxışlarının, Vətən müharibəsi dövründə xalqa müraciətlərinin mahiyyətində dayanan əsas məsələlərdən biri məhz müharibənin qəhrəmanlarının 2003-cü ildən, yəni, cənab İlham Əliyevin Prezidentliyi dövründə yetişən gənclərin olmasıdır. Müzəffər Ali Baş Komandanın "İrəli!" əmrinin yüksək səviyyədə yerinə yetirən Azərbaycan Ordusu 44 gündə yazdığı tarixlə illərdir torpaqlarımızın işğal altında qalmasından nə qədər mənəvi sarsıntı keçirdiyini nümayiş etdirdi. "Artıq yetər" deyib silaha sarılaraq öz qanları, canları ilə tarix yazan şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə şəfa diləyirik.

Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin nitqində əks olunan bu əminliyi yada salmaq istərdik: "Azərbaycan getdikcə güclənəcək. Biz inkişaf yolundayıq. Bizim qarşımızda bütün yollar açıqdır, üfüqlər aydındır. Bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedəcək. Ermənistan bizimlə heç cür rəqabət apara bilmir və bilməyəcək. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, iqtisadi güc bizdədir, hərbi güc bizdədir, vətənpərvərlik ruhu bizdədir. Aprel qələbələri, Naxçıvan qələbələri bir daha ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu möhkəmləndirir, bir daha Azərbaycan xalqını əmin edir ki, o, tam arxayın ola bilər, Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir və buna hazırdır."

Aprel döyüşləri, Lələtəpə əməliyyatı, Günnüt uğuru düşmənə zərbə olmaqla bir həqiqəti də dünya ictimaiyyətinə bəyan etdi ki, Azərbaycan heç vaxt işğalla barışmayacaq və öz ərazi bütövlüyünü bərpa edəcək. Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsi bunun təsdiqi oldu. Düşmən diz çökdürüldü, kapitulyasiya aktına imza atdı, illərdi yaratdığı "yenilməz erməni ordusu" mifi dağıdıldı. Dünya gördü ki, ən güclü ordu Azərbaycan ordusudur, ən məğrur, yenilməz xalq Azərbaycan xalqıdır.

## Azərbaycan 18 ildə dünyaya ədalət çağırışını etdi, haqq səsini ucaltdı

Son 18 ilin uğurlarından bəhs edərkən xarici siyasətdə qazanılan nailiyyətləri xüsusi vurğulamaq lazımdır. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında əməkdaşlıq əlaqələri quran, açıq və çoxşaxəli siyasət kursu həyata keçirən Azərbaycan hazırda regional inkişafın aparıcı qüvvəsi, dünya birliyinin fəal üzvü kimi diqqətdədir. Azərbaycan son illərdə yeni dostlar, tərəfdaşlar qazanıb. Xarici siyasətində qonşu, eyni zamanda, Avropa dövlətləri ilə əlaqələrə xüsusi önəm verən Azərbaycan bu əməkdaşlığa davamlı töhfələri ilə diqqət çəkir. Təbii ki, əlaqələrin inkişafında qarşılıqlı səfərlər, bu səfərlər çərçivəsində aparılan müzakirələr, imzalanan sənədlər əhəmiyyətli rol oynayır. Beynəlxalq münasibətlər sistemində böyük rola və nüfuza malik olan Azərbaycanı 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi. Azərbaycan BMT Baş Assambleyasından sonra ikinci böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının üzvüdür və quruma iki illik sədrlik ölkəmizə həvalə olunub. Bu il Qoşulmama Hərəkatının üzvlərinin qərarı ilə Azərbaycanın quruma sədrliyinin müddəti bir il də artırıldı. Bu, ölkəmizin ədalətin, beynəlxalq hüququn müdafiəsinə, ən əsası dünyanı bürümüş koronavirus infeksiyası ilə mübarizədə fəal iştirakına, təşəbbüsləri ilə dünyaya etdiyi çağırışlara əsaslanır. Azərbaycan qlobal problemlərin həllində fəal mövqeyi ilə diqqətdədir. Ölkəmizin təşəbbüsü ilə Türk Şurasının, Qoşulmama Hərəkatının Zirvə Görüşlərinin, BMT Baş Assambleyasının Xüsusi Sessiyasının keçirilməsi də ölkəmizə dəstəyin aydın mənzərəsini yaradır.

Xarici siyasətində beynəlxalq hüququn norma və prinsiplərini öndə saxlayan Azərbaycan ən yüksək tribunalardan haqqın, ədalətin Azərbaycanın tərəfində olduğunu bəyan edərək daim dünyadan ikili standarta əsaslanan siyasətə son qoymağı tələb edir. Bu məqam daim önə çəkilirdi ki, bəzən BMT qətnamələri çox az müddətdə icra edilir, Azərbaycana gəldikdə illərlə gözləməli oluruq. Bu, ikili standartdır. Bu, ədalətsizlikdir. Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin qətiyyəti, ordumuzun gücü sayəsində bu ədalətsizliyə son qoyuldu. Prezident İlham Əliyevin 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında bəyan etdiyi "Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi" 44 günlük Vətən müharibəsinin rəmzinə çevrildi.

Azərbaycanın haqlı mövqeyini dəstəkləyən dövlətlərin və təşkilatların sayının artması Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir. Bu illər ərzində münaqişənin həllində möhkəm hüquqi baza formalaşmışdır. Rəsmi Bakı dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından dəyişməz mövqeyimizi bəyan edirdi- Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və ola da bilməz. 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa edən Azərbaycan bir daha bu reallığı sübut etdi ki, beynəlxalq münasibətlərdə güc və hüquq əsas rol oynayır.

## Azərbaycan Zəfər zirvəsini fəth etdi

44 günlük İkinci Qarabağ müharibəsində qazanılan tarixi Qələbə möhkəm təməl üzərində son 18 ildə görülən işlərin nəticəsi oldu. Azərbaycan bu illər ərzində ərazi bütövlüyümüzün bərpasına hazırlıq işlərini gördü. Ölkəmizin 30 ilə yaxındır pozulmuş ərazi bütövlüyünün 44 günlük Vətən müharibəsi nəticəsində bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir.

Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev adını tariximizə torpaqlarımızın xilaskarı kimi qızıl hərflərlə yazdı. Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı qürurludur. İşğaldan azad edilmiş ərazilərimiz quruculuq meydanını xatırladır. Bərpa və quruculuq işləri geniş vüsət alıb. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq sıfırdan yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard dollar ayrılmışdır. 2022-ci ildə isə bu işlərə 2 milyard manatdan çox vəsait ayrılması nəzərdə tutulub. Üç hava limanının inşası, 100 kilometrlərlə dəmir yolunun çəkilməsi regionun logistik simasını tamamilə dəyişdirəcək. Minlərlə kilometr avtomobil yolu çəkiləcək. Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr qısa müddət ərzində icra ediləcək. İçməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, bir milyona yaxın insanın doğma yurdlarına qaytarılması, yüzlərlə məktəb, xəstəxana, idman kompleksləri, mədəniyyət ocaqlarının inşası, habelə digər irihəcmli işlər Böyük Qayıdış çərçivəsində reallaşdırılacaq. Dövlət başçısı İlham Əliyevin Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü aparılıb, həmçinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiqlənib. Hər bir sənəd Böyük Qayıdışı yaxınlaşdırmaqla yanaşı, qarşıdakı illərin aydın mənzərəsini yaradır. Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanı möhtəşəm uğurlar gözləyir.

Hər bir vədinin əməli fəaliyyəti ilə təsdiqləyən Prezidentə xalqın sevgisi şəksizdir. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanı gücləndirdi, qalibiyyətimizi şərtləndirən bütün amillərin yaradılmasına nail oldu və sonda azadlığına qovuşacağını 30 il səbirsizliklə gözləyən torpaqlarımıza "Biz gəldik və burada əbədi olacağıq" söylədi. Prezident İlham Əliyevin qalib Lider kimi işğaldan azad edilmiş ərazilərimizə səfərləri əbədi gəlişin təsdiqidir. Bu günümüzün reallıqları, eyni zamanda, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın "Qoy bizim üçrəngli bayrağımız suveren, qüdrətli Azərbaycan səmasında əbədi dalğalansın!", "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!" kimi istəklərinin təsdiqidir. Xalqımız əmindir ki, dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində hər bir hədəfə uğurla nail olacaq, Azərbaycanımız daha yüksək zirvələri fəth edəcəkdir. Möhtərəm Prezidentimiz İlham Əliyevin hər zaman bəyan etdiyi kimi, bu gün Azərbaycanın cəsarətli, xalqın iradəsinə əsaslanmış, milli maraqlar üzərində qurulmuş siyasəti bizə imkan verir ki, ölkəmizin gələcəyi ilə bağlı sözümüzü böyük nikbinliklə deyək. Bu nikbinliyə əsas verən 1993-cü ildən başlanan yolun Azərbaycana qazandırdığı böyük uğurlardır.

# Lideri olan xalq xoşbəxtdir



*Füzuli Gülaliyev, YAP Qobustan rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən*

**Görkəmli tarixi şəxsiyyətlər az-az yetişir, xalqın tarixində mühüm rol oynayır, taleyində, yaddaşında yaşayır. Və həmin xalq belə şəxsiyyətlər ilə fəxr etməklə yanaşı, həm də onlarla daha çox tanınır. Bu da danılmaz həqiqətdir ki, insanlığın bu uca zirvəsinə, liderliyə çatmaq hər kəsə müyəssər olmur. Ümummilli Liderimiz Heydər Əliyevin dünyanın digər liderlərindən fərqləndirən əsas amil ondan ibarətdir ki, Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri onu əbədiyaşar Lider etmişdir.**

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü və əlçatmazlığı ondadır ki, onun düşüncələri də, əməli fəaliyyəti də təkcə yaşadığı dövrlə məhdudlaşmır, uzaq gələcəyə ünvanlanmış olur. Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanı ötən əsrin 90-cı illərində düşdüyü ağır, xaosun, anarxiyanın, özbaşınalığın, aclığın, fəlakətin hökm sürdüyü faciəli günlərdən, yenicə müstəqillik qazanmış respublikamızı müstəqilliyini itirməkdən, parçalanmaqdan, məhv olmaqdan xilas etdi. Onu tənəzzüldən tərəqqiyə qovuşdurdu.

Ölkədə ictimai-siyasi sabitlik bərpa edildi, dağıdılmış iqtisadiyyat inkişaf etdirildi. Əsrin müqaviləsi adlanan neft kontraktı imzalandı. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Bir sözlə, müstəqil dövlət quruculuğu prosesi uğurla həyata keçirilirdi. 2003-cü ilin ortalarında Ümummilli Liderin səhhətində ciddi problem yarananda Azərbaycan xalqı çox böyük narahatçılıq hissi keçirirdi. Hamını bir sual düşündürürdü: "Görəsən Azərbaycan Ulu Öndərdən sonra hansı yolla gedəcək? Yenə də 1990-cı illərin faciəli günlərinə qayıdacaq, yoxsa Heydər Əliyev yolu ilə gedərək inkişaf edəcəkdir".

Əsrin böyük azərbaycanlısı, xalqın xilaskarı, müstəqil dövlətimizin memarı və qurucusu ümummilli liderimiz Heydər Əliyevin xalqımız və millətimiz qarşısındakı əvəzsiz xidmətlərindən biri də onun müstəqil dövlətimizin gələcək inkişaf strategiyasının hazırlanması və bu strategiyanın həyata keçirə biləcək lideri-İlham Əliyevi yetişdirərək dövlətimizin sükanını etibarlı əllərə tapşırmasıdır. Ulu Öndərin İlham Əliyev haqqında dediyi "Mən ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim işləri, planları, taleyüklü məsələləri İlham Əliyev Sizin yaxından köməyiniz və dəstəyinizlə axıra çatdıra biləcək". 2003-cü ildə keçirilən prezident seçkilərində inamlı qələbə qazanan İlham Əliyevin hakimiyyətə gəlişi ilə qədim və zəngin dövlətçilik ənənələri olan Azərbaycan xalqının tarixində yeni keyfiyyət mərhələsi başladı. Ölkə rəhbəri millətin və dövlətin qarşısında dayanan başlıca vəzifənin işğal altında olan torpaqların azad edilməsi olduğunu bildirdi. Ölkənin daxili və xarici siyasətində həyata keçirilən bütün tədbirlər bu başlıca vəzifənin yerinə yetirilməsinə yönəldildi.

İlham Əliyevin prezidentliyinin ilk 18 ilində ölkənin daxili siyasətində - dövlət idarəçiliyində, ictimai-siyasi, iqtisadi, mədəni həyatda müstəsna əhəmiyyət daşıyan işlər görülüb. Azərbaycan tamamilə yenidən qurulan, sosial-mədəni obyektlər, infrastruktur yaradılan, müasirləşən bir ölkəyə çevrilib, ən başlıcası, torpaqlarını işğaldan azad edib. Uğurlu xarici siyasət fəaliyyəti yürüdülüb. Azərbaycan beynəlxalq neft-qaz, enerji, nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırıldığı ölkə olub, mövqeləri möhkəmlənib, nüfuzu artıb və birləşdirici güc dövləti halına gəlib. Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan müasirləşən bir ölkəyə çevrilib. İlham Əliyev Azərbaycan xalqının minilliklər tarixində Qurucu Prezident adını qazanıb. Güclü Azərbaycan dövləti qurulub.Tarixi təcrübə göstərir ki, təbii sərvətlər heç də xalqın inkişafının başlıca şərti deyildir. Əsas məsələ təbii sərvətləri milli sərvətə çevirmək və uğurla əməkdaşlığı etmək bacarığıdır. Azərbaycan rəhbəri təbii sərvətləri Milli sərvətə çevirərək xalqın və dövlətin ümumi tərəqqisinə yönəldib. Prezident İlham Əliyevin həyata keçirdiyi enerji siyasəti nəticəsində Azərbaycan Respublikası qaz təchizatını nəinki təmin etdiyi, eyni zamanda, Avropanın tələbatının ödənilməsində mühüm rol oynayan bir ölkəyə çevrilmişdir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri təkcə iqtisadi deyil, böyük siyasi və strateji əhəmiyyət daşıyan, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynayan kəmərlərdir. TANAP və TAP layihələri Azərbaycanın, Avropa dövlətləri və xalqları üçün nə qədər əhəmiyyətli bir ölkə olduğunu göstərir.

Azərbaycan nəqliyyat təhlükəsizliyini təmin edən bir ölkədir. Böyük ipək yolu, Bakı-Tbilisi-Kars dəmiryolu kimi layihələr Azərbaycanı yenidən dünyanın tranzit, nəqliyyat və ticarət mərkəzlərindən biri halına gətirib. Çoxşaxəli nəqliyyat kəmərlərinin yaradılması və inkişaf etdirilməsi Azərbaycanın iqtisadi qüdrətinin artmasına təsir edən amillərdən biri oldu. Bakı-Tbilisi-Qars, Naxçıvan-Məşhəd dəmiryol xəttlərinin tikintisinin, Şərq-Qərb və Şimal-Cənub nəqliiyat-kommunikasiya xəttinin uğurla başa çatması ilə Azərbaycan dünyanın böyük nəqliyyat qovuşağı olan bir ölkəyə çeviləcək, infrastruktur inkişaf edəcək, yeni iş yerləri açılacaq, əhalinin həyat şəraiti daha da yaxşılaşacaqdır. Prezident İlham Əliyevin hakimiyyətinin ilk 18 ilində qədim və zəngin Azərbaycan mədəniyyətinə yeni bir nəfəs gəlib. Azərbaycan maddi və qeyri-maddi irsi YUNESKO-nun irs siyahısına daxil edilib. Azərbaycan Prezidenti xalqının dünya mədəniyyəti yaradan bir xalq olduğunu bir daha sübut edərək, ona böyük yaradıcılıq imkanları yaradıb.

İlham Əliyevin hakimiyyəti illərində xalqın milli ruhu yüksəlib və özünəinamı artıb. Xalq və dövlət arasında birlik, hakimiyyətin qanadları arasında səmərəli əməkdaşlıq qurulub. Demokratikləşdirmə, vətəndaş cəmiyyətinin qurulması məqsədi ilə geniş islahatlar həyata keçirilib. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirilib. Azad mətbuat formalaşaraq inkişaf edib. İlham Əliyev əslində, dünyaya yeni bir model verib. Bu, Azərbaycan modelidir. Prezident İlham Əliyevin Azərbaycan tarixində yaratdığı möhtəşəm tədbirlərdən biri Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsidir. Bakıda keçirilən Birinci Avropa Oyunlarında 50 ölkədən 6000 mindən çox idmançının iştirak etdiyinu möhtəşəm tədbir Azərbaycanın dünyaya tanıdılmasında mühüm rol oynadı. 2011- ci ildə Azərbaycan Respublikasının 155 dövlətin dəstəyilə BMT təhlükəsizlik şurasına üzv seçilməsi tarixi hadisə, Prezident İlham Əliyevin xarici siyasətinin ən böyük uğurlarından idi. Azərbaycanın 2012-2013-cü illərdə dünya siyasətini müəyyən edən 15 ölkədən biri olması onun dünyada siyasi nüfuzunun artmasının bariz nümunəsi idi. İlham Əliyev iki dəfə BMT Təhlükəsizlik Şurasına sədrlik edən və nitq söyləyən ilk Prezident idi. 2013- cü ildə Azərbaycanı kosmik klubun üzvü etdi. Ölkə başçısının həyata keçirdiyi düşünülmüş uğurlu müstəqil iqtisadi siyasət və davamlı orduquruculuğu strategiyası Prezident İlham Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf edən Azərbaycan ordusunu dünyanın ən güclü 50 ordusu sırasına yüksəlməsinə gətirib çıxardı. Silahlı Qüvvələrin maddi-texniki təchizatının yenilənməsi, müasir infrastrukturun yaradılması, hərbi qulluqçuların sosial müdafiəsi, mənzil təminatının yaxşılaşdırılması, həmçinin müdafiə sənayesinin inkişaf etdirilməsinə Prezident cənab İlham Əliyev tərəfindən hər zaman xüsusi diqqət göstərilmişdir. Bütün bunların nəticəsi olaraq Azərbaycan Silahlı Qüvvələri bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında öz xalqına Qələbəni bəxş etmiş müzəffər Orduya çevrilmişdir. Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında 44 gün davam edən Vətən müharibəsində düşmən üzərində qələbə qazanaraq tarixi nailiyyətə imza atdı. Ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir. 300 ilə yaxın idi ki, böyük qələbəyə ehtiyacı olan və on illər idi ki, ermənilərin hər dəfə müxtəlif azğınlıqları ilə qarşılaşan xalqımız və dövlətimiz nəhayət ki, qələbəyə imza ataraq tarixi ədaləti bərpa etməyə müvəffəq oldu. Belə ki, 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi və Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı.

Hərbi Qənimətlər Parkının yaradılması Prezident İlham Əliyevin tariximizdə yaratdığı möhtəşəm Zəfər salnamələrindən biridir. Bu park millətin bütün nəsillərində vətənpərvərlik, dövlətçilik, torpaq sevgisi, dövlət milliyyətçiliyi və düşmənə nifrət hissi aşılayacaq. Parka gələn Azərbaycan vətəndaşları öz tarixləri ilə fəxr edəcək, xaricilər isə Azərbaycan dövləti və millətinin qüdrətini görəcəklər. Ümumiyyətlə, Prezident İlham Əliyevin müstəqil Azərbaycan tarixində yaratdığı möhtəşəm Zəfər salnaməsinin başlıca ibrət dərsləri ondan ibarətdir ki, millətimizin qarşısına qoyduğu məqsədlərinə çatmasının təməlində sabitlik, davamlı inkişaf, güclü dövlət və qüdrətli dövlət rəhbəri amilləri dayanır. 44 gün davam edən Vətən müharibəsində Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımız azad edildi. Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Bu zəfər Azərbaycanın gücünü və qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Bu tarixi və Şanlı Qələbə Heydər Əliyev siyasətinin, ideyalarının təntənəsi, qələbəsi idi. Bu möhtəşəm qələbə ölkə Prezidenti İlham Əliyevin 2003-cü ildən başlayaraq həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin, diplomatiyasının qələbəsi idi. 2003- cü ildən ölkəyə rəhbərlik edən möhtərəm Prezidentimiz İlham Əliyev ölkə iqtisadiyyatının dinamik inkişafına təmin etdi. Neftdən gələn gəlirlər hesabına iqtisadiyyatımızın digər sahələri inkişaf etdirildi, çoxsahəli iqtisadiyyat formalaşdırıldı. Təsadüfi deyil ki, 10 ildən çox bir müddətdə Azərbaycan iqtisadi artım tempinə görə dünyada lider oldu. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Bəli, iqtisadi sahədə əldə olunan nailiyyətlərdən ilk növbədə xalqımızın sosial rifah halının daha da yaxşılaşdırılmasına, müharibə şəraitində yaşadığımız üçün Ordu quruculuğuna, hərbi sənayeyə sərf olundu. Ordumuz ən müasir silahlarla təchiz edildi. 44 günlük müharibədə dünya hərb tarixinə yeni, Azərbaycan hərb tarixinə Şanlı səhifə yazan, düşməni məhv edən, qüdrətli Azərbaycan ordusu formalaşdı. Nəyi, necə, nə zaman etməyi çox yaxşı bilən Müzəffər Ali Baş komandan möhtərəm Prezidentimiz İlham Əliyev düşmən təxribatına cavab olaraq 2020-ci ilin sentyabr ayının 27-də irəli komandası verdi. Bütün Azərbaycan xalqı harada yaşamasından asılı olmayaraq ölkə Prezidenti İlham Əliyevin düşmənin belini qıran, başını əzən "Dəmir yumruğu" ətrafında sıx birləşərək milli birlik nümayiş etdirdi. Şanlı qələbəmiz Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, xalqımızın birliyi, həmrəyliyi, Şanlı Ordumuzun peşəkarlığı, rəşadəti, qəhrəmanlığı sayəsində qazanılmışdır. Müzəffər Prezidentimiz, qalib Ali Baş Komandanımız xalqımızı "Dəmir yumruq" ətrafında sıx birləşdirərək Ata vəsiyyətini şərəflə yerinə yetirərək işğal altında olan torpaqlarımızı azad etdi, Azərbaycanın suverenliyini bərpa etdi. Şuşanın azad edilməsi xəbərini xalqımıza çatdıran zaman Müzəffər Ali Baş Komandanımız İlham Əliyev demişdir ki, xoşbəxt adamam ki, Ata vəsiyyətini yerinə yetirdim. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun Ümummilli Lider Heydər Əliyevi, qalib, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevi var!



## YUBİLEYİ MÜBARƏKDİR İLHAMIN!

**Səmada, dağlarda bir qartal oldun!**
**Fəqət, yorulmadı qanadın, İlham!**
**Tufanda, boranda çarpışan oldun!**
**Keçdi cəbhələrdə həyatın, İlham!**
**Dəfələrlə ölümün yanından keçdin,**
**Sən Zəfər yolunu döyüşlə keçdin.**
**İgidlərlə birgə səngəri seçdin,**
**Qəti qərarlıdır inadın sənin!**
**Ali Baş Komandan, ey dahi rəhbər!**
**Şərəfli həyatın dünyaya dəyər!**
**Qüdrətinə heyran ölkələr, ellər,**
**«Dəmir yumruq»dandır biləyin sənin!**
**Otuz illik Qarabağın savaşın,**
**44 günə əzdin düşmənin başın.**
**Xalqın qarşısında ucadır başın,**
**Ulu Türk xalqının qəhrəman oğlu!**
**60 illik ömrün hələ bahardır!**
**Qəlbində tükənməz arzular vardır!**
**Allah dayağında, yolunda yardır!**
**Yubileyi mübarəkdir İlhamın!**

*ADPU-nun pedaqogika kafedrasının sabiq baş müəllimi Mürsəlova Ofelya Mürsəl qızı*

# Anti-Paşinyançılar doğrudanmı ağıllanıblar?

İllər boyu öz günahı üzündən blokadada qalan Ermənistan nəhayət, oradan çıxmaq üçün qəti qərara gəlib. Ağılsız iddialarından əl çəkməli olan bu ölkə qonşularla münasibəti normallaşdırmaq üçün artıq heç bir şərt irəli sürmədən Türkiyə ilə bağlı siyasətində düzəlişlər etməyə hazır olduğuna açıq işarə edib. Keçən həftənin sonunda bu istiqamətdə real addımlar da atılıb. Brüssel görüşündən sonra Paşinyan hakimiyyətində təmsil olunanlar ermənilər başa salmağa çalışırlar ki, köhnə və "kanalizasiya qoxusu" verən iddialar Ermənistanı bir dövlət kimi uçuruma aparır.

Artıq Ankara və İrəvan münasibətlərin normallaşması üçün özlərinin xüsusi nümayəndələrini təyin etdiklərini bildiriblər. Türkiyəni təcrübəli diplomat, bu ölkənin ABŞ-dakı keçmiş səfiri Sərdar Kılıç, Ermənistanı isə vitse-spiker Ruben Rubinyan təmsil edəcək.

Paşinyanın bu vəzifəni niyə Ruben Rubinyana tapşırması bir çoxları üçün həm müəmmalıdır, həm də maraqlıdır. Bu şəxs vitse-spiker olmamışdan əvvəl qısa müddətli olsa da, xarici işlər nazirinin müavini idi. Lakin elə düşünməyin ki, diplomatik məharətinə görə bu missiyanı ona həvalə ediblər. Xeyr, elə deyil. Bunun müxtəlif səbəbləri var. Birincisi, Puben Rubinyan baş nazir Nikol Paşinyana yaxın şəxsdir və görünür, erməni baş nazir Türkiyə ilə danışıqların detallarının dar çərçivədən kənara vaxtından əvvəl sızmasını istəmir. Yəni, ən məxfi işləri yalnız özünün inandığı və etibar etdiyi adamlara tapşırır. İkincisi, Ruben Rubinyan "məxməri" inqilaba qoşulmaq üçün Ermənistana gəlməmişdən bir qədər əvvəl - 2017-2018-ci illərdə Türkiyədə fəaliyyət göstərib. O, Hrant Dink Fondunda işləyib və Sabançı Universitetində araşdırmalar aparıb. Yadınızdadırsa, hətta İkinci Qarabağ müharibəsindən sonra parlamentdə vitse-spiker seçiləndə Ermənistanın müxalifət mediası ona qarşı "türkün agenti" ittihamını da irəli sürürdü. O da xüsusi qeyd olunmalıdır ki, Rubinyanın Türkiyədəki erməni icması ilə yaxın münasibətləri var və hazırda Nikol Paşinyanla həmrəy olan erməni icması Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını dəstəkləyir. Onlar ermənilərin Türkiyəyə, türklərin isə Ermənistana sərbəst gediş-gəlişlərinin, iqtisadi münasibətlərin inkişafının tərəfdarı olduqlarını bildirirlər. Çünki münasibətlərin normallaşması ilə onların həyat şəraitlərinin daha da yaxşılaşması real imkan yaradacaqdır. Bir sözlə, bu iki dövlətin mehriban qonşuluğu Türkiyədə yaşayan ermənilərə tamamilə sərf edir.



Baş nazir Nikol Paşinyanın bu missiyanı "türklərin dilini yaxşı başa düşən" Ruben Rubinyana həvalə etməsi həm də normallaşma müzakirələrindən daha qazanclı çıxmaq istəyindən irəli gəlir, çünki İrəvan heç bir şərt irəli sürmədən danışıqlar aparmaq istəyir. Ancaq Ankara təkidlə müzakirəni Bakının maraqları çərçivəsində aparacağını deyir. Görünür, Ermənistan rəhbərləri Türkiyənin bu şərtinə əməl etmək məcburiyyətindədirlər, yəni buna da razıdırlar.

Son günlərdə Bakının 10 nəfər erməni əsiri azad etməsi Ermənistan və dünya ictimaiyyətində Azərbaycanın humanist mövqe göstərməsi razılıqla qarşılanıb. Azərbaycanın bu humanist missiyası Ermənistanda anti-Paşinyanları müəyyən qədər geri çəkilməyə vadar edib. Ermənilər anlamağa başlayıblar ki, başqa çıxış yolu da yoxdur, çünki Türkiyə və Azərbaycan öz tələblərində möhkəm durduqlarını dəfələrlə bəyan ediblər. Bu tələblər isə çox deyil, birincisi Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, Türkiyə ərazilərinə torpaq iddialarını həmişəlik dəfn etməli, ikincisi, uydurma "erməni soyqırımı" birdəfəlik rədd edilməli, üçüncüsü, Zəngəzur dəhlizi açılmalıdır.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bu günlərdə Ankarada səfərdə olan Malayziyanın xarici işlər naziri Dato Saifuddin Abdullahla birgə keçirilən mətbuat konfransında da bu barədə bildirib. M. Çavuşoğlu deyib ki, yaxın gələcəkdə Ermənistana birbaşa təyyarə reysləri fəaliyyətə başlayacaq: "Daha öncə "Atlas Global" şirkətləri uçuşları təmin edirdi, hazırda bəzi şirkətlərin müraciətləri olub. Nəqliyyat və İnfrastruktur Nazirliyi və Mülki Aviasiya İdarəsi ilə bərabər bu istiqamətdə fəaliyyətləri davam edir, bu müraciətlərə baxılır".

M. Çavuşoğlu bir daha vurğulayıb ki, Ermənistanla bağlı verilən bütün qərarlarda Azərbaycanla birgə məsləhətləşmələr aparılır və qərar verilir: "Bizim arzumuz Cənubi Qafqazda sülhün bərqərar olması, Zəngəzur dəhlizinin açılmasıdır".

Qeyd etmək lazımdır ki, revanşistlərdən və bəzi qatı millətçilərdən başqa ermənilərin tam əksəriyyəti artıq bunlarla razılaşırlar. Onlar inanırlar ki, yaxın qonşularla ədavəti, ərazi iddialarını və bəzi sərsəm ideyaları bir kənara atmasalar, erməni toplumunun Azərbaycan ərazisində onun-bunun hesabına quraşdırdıqları dövlət dağılıb yerlə-yeksan ola bilər. O halda nə çox güvəndikləri qəssab II Tiqran, nə dünyaya zəhər paylayan cəllad-yazıçı Zori Balayan, nə də siyasi avantüraçı Mixail Qorbaçov onların köməyinə yetişə bilməyəcəklər. İkinci "dəmir yumruq" isə bu qurama qurumu tamamilə darmadağın edib xəritədən silə bilər. Nə olar erməni olanda, bunları qanmaq ölüm deyil ki!

***Vəli İlyasov***

---



Elçin Bayramlı

# Türkiyənin son döyüşü

**Dünən Türkiyə maliyyə nazirinin TRT-də geniş müsahibəsinə baxdım. Nazir Qərbin Türkiyəyə qarşı apardığı maliyyə-iqtisadi terroruna qarşı dövlətin hazırladığı kompleks proqramın detallarını açıqladı. Deyə bilərəm ki, mükəmməl bir proqramdır. Dövlət sahibkarlara, şirkətlərə, banklara, vətəndaşlara çox böyük vergi və kredit güzəştləri tətbiq edir.**

Döşəyin altında yatan valyutasını banka yatıranlara tam təminat verilir, o cümlədən qızılını dövlətə yatıranlara. Təxmini hesablamalara görə, ölkə üzrə evlərdə sandıqçalarda yatan qızılın ümumi dəyəri 280 milyard dollar məbləğindədir. Yüz milyardlarla dollar da "döşəyin altında" və bankların qapalı saxlanclarında yatır. Hələ xarici banklarda da çox böyük dollar saxlancı var.

Dövlət nə təklif edir? Deməli, vətəndaş dollarını qoyur banka, 3, 6 və 12 aylıq təminatla. İstədiyi vaxt pulunu geri çəkə bilər və pulu həmin günün məzənnəsi ilə hesablanacaq. Ödəmə tarixinin sonunda məzənnə faiz dərəcəsindən yuxarı qalxarsa, fərq müştərinin hesabına TL ilə yatırılacaq. Məzənnə fərqi olmasa, istehlakçı vəsaitdən yaranan faizini alacaq. Yəni, vətəndaş heç nə itirmir, dövlətə verdiyi dollar bahalaşsa belə qazanır.

Kiçik bir misalda baxaq- məsələn, bankda 10 min lirəsi olan bir vətəndaş 3 ayın sonunda 16 faizlə 394 lirə faiz gəliri qazanacaq. Dolların məzənnəsinin eyni dövrdə 40% artımla 10 lirədən 14 lirəyə yüksəldiyini fərz etsək, dövrün sonunda 40% artım nəzərə alınacaq. Bu halda 4 min lirə faiz olaraq hesaba əlavə olunacaq. 3 ayın sonunda vətəndaşın hesabı 10 mindən 14 min lirəyə yüksəlmiş olacaq. Yəni, vətəndaş 1 lirə də itirməyəcək, əskinə, qazanacaq.

Bu, çox mükəmməl bir addımdır. Dollarizasiya minimuma düşə bilər. Çox güclü effekt verə bilər. İndi sadəcə bir məsələ qalır. Ölkə rəhbərliyi xalqı öz dövlətinə güvənməyə çağırır. Türkiyə vətəndaşları heç olmasa bircə dəfə öz dövlətinə güvənsə dolların məzənnəsini uzağı 1 ayadək 1 lirəyə sala bilərlər. İndiyədək dəfələrlə öz "müttəfiqlərinin" belə maliyyə-iqtisadi terroru ilə üz-üzə qalan Türkiyədə əhali bunu etməyib deyə hər dəfə həm dövlət, həm vətəndaşlar ağır zərərə düşüb.

Qısası Türkiyə əhalisi ölkənin taleyi həll olunan həyati əhəmiyyətli bu problemə ağıllı və məsuliyyətli yanaşsa bu dəhşətli böhrandan çıxa biləcəklər, bunu edə bilməsələr, hər kəs "mən qazanım hamı zərər düşsün" deyə düşünsə, çox ağır vəziyyətə düşəcəklər. Dövlət öz borcundan artıqlaması ilə çıxdı, dünyada görünməmiş xilas proqramı hazırladı, əhaliyə və biznesə ən yüksək güzəştlər verdi, indi hər şey xalqdan asılıdır.

Ərdoğanın müraciətindən və maliyyə nazirinin çıxışından sonra proses başlayıb. Artıq bir gecədə vətəndaşlar tərəfindən təkcə İş Bankına 1,75 milyard dollar təhvil verilib. Nəticədə lirə 40 faiz dəyər qazandı. 1 dollar-14 lirədən 12 lirəyə düşdü.

15 ildir mübarizə aparılan Türkiyənin Amerika müstəmləkəçiliyindən qurtulması və tam müstəqil dövlətə çevrilməsi prosesində son nöqtə budur. İndiyədək Türkiyəyə qarşı bütün mümkün terror vasitələrindən istifadə ediblər- PKK terroru, siyasi təxribatlar, hərbi əməkdaşlığı pozmaq, etnik və dini zəmində qarşıdurmalar yaratmağa chdlər, qanlı dövlət çevrilişi cəhdi və s.- lakin alınmayıb. Son silahları budur- ölkəni maliyyə-iqtisadi cəhətdən çökdürmək və yenidən özlərinə tabe etdirmək. Bu kritik və son döyüşdə xalqla dövlət bir hədəfə vursa, qalib gələcəklər. Şübhə yoxdur ki, türk xalqı bu ağır sınaqdan üzüağ çıxacaq.

---



# ABŞ-da konqresmenə silahlı hücum edildi

Amerika Birləşmiş Ştatlarında (ABŞ) konqresmen Meri Gey Skanlonun avtomobili dünən axşam saatlarında Filadelfiya parkında silahlı hücuma məruz qalıb və oğurlanıb. Delaver ştatı polisi Skanlonun avtomobilinin silahlı hücumla oğurlanmasından sonra beş şübhəlini saxlayıb. Polis tərəfindən oğurlanmış avtomobilin Nyuark dairəsində tapıldığı bildirilib. Şübhəlilərin Skanlonun hökumət tərəfindən verilmiş telefonunu və iki lizensiyasını oğurladığı bildirilib. Hücumdan sonra Skanlon hücumla bağlı operativ tədbir gördükləri üçün Filadelfiya Polis Departamentinə və yerli polisə təşəkkür etdiyini bildirib.

***Turqay Musayev***

# Stanislav Pritçin: "Azərbaycan Ermənistan və Rusiya arasında bağlayıcı faktor ola bilər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Rusiya Elmlər Akademiyasının Primakov adına Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər Milli Elmi-Tədqiqat İnstitutunun (IMEMO) baş elmi işçisi, tarix elmləri namizədi Stanislav Pritçin "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistan-Azərbaycan-Rusiya münasibətləri haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik**



***- Cənubi Qafqazda yeni regional təhlükəsizlik sisteminin layihələndirilməsində əsas tərəfdaşlar kimi Rusiya və Azərbaycanın rolunu necə görürsünüz?***

- Obyektiv desək, Rusiya və Azərbaycan kifayət qədər təsirli qarşılıqlı sərmayələr paketi ilə iqtisadi baxımdan Cənubi Qafqazda əsas tərəfdaşlardır. Bütövlükdə bu, Rusiya-Azərbaycan münasibətlərində mövcud olan strateji siyasi dialoqu vurğulayır. Bu baxımdan, İkinci Qarabağ Müharibəsinin nəticələrinə dair 10 noyabr 2020-ci il tarixli Bəyanatda əksini tapdığı kontekstdə yeni konfiqurasiya Rusiya-Azərbaycan əməkdaşlıq vektorunu əhatə edir və gücləndirir.

***- Sizcə, Cənubi Qafqazda yeni reallıqlarda Avrasiyanın yeni nəqliyyat-arterial xəritəsinin formalaşmasında və Şimal-Cənub layihəsində əməkdaşlığın inkişafında Rusiya və Azərbaycanın maraqları nə dərəcədə yüksəkdir?***

- Ümumiyyətlə, dəhlizlərin blokunun açılması bütün oyunçuların marağındadır və Azərbaycan öz əlverişli coğrafi mövqeyinə görə, logistika baxımından Ermənistanla Rusiya arasında mühüm halqaya çevrilə bilər. Bu gün Ermənistanla Rusiyanın dəmir yolu əlaqəsi yoxdur, çünki Gürcüstandan keçən dəmir yolu əlaqəsi belə yoxdur. Azərbaycan isə öz dəmir yolları ilə sülh prosesi yekunlaşdıqdan sonra qarşılıqlı fəaliyyət üçün tam hüquqlu nəqliyyat qovşağına çevrilə bilər.

Ümumiyyətlə, hər şey regionun iqtisadiyyatı üçün işləyir və Rusiya-Azərbaycan münasibətlərinə cavab verir. Sərhədlərin açılması və regionda yeni nəqliyyat xəritəsi logistikanı, regionun əlaqəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq və ticarət üçün imkanlar açacaq. Bu gün Şimal-Cənub layihəsinin dəmir yolu hissəsinin sonadək tamamlanmadığını nəzərə alsaq, müvafiq olaraq böyük həcmdə yüklərin daşınmasında çətinliklər yaranıb və indiki mərhələdə Zəngəzur dəhlizindən istifadə bu çətinlikləri aradan qaldıra bilər.

***- Azərbaycan öz ərazilərini azad etdikdən sonra Bakı ilə Moskva arasında əməkdaşlıq üçün hansı yeni imkanlar açılıb?***

- Son sammit görüşlərinin nəticələrinə əsasən, Rusiya digər dövlətlər, aparıcı oyunçularla yanaşı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində köhnə infrastrukturun bərpasında, o cümlədən yeni iqtisadi layihələrdə fəal iştirak edir. Mən bildiyimə görə, Rusiya şirkətlərinin bir sıra investisiya layihələri nəzərdən keçirilir. Rusiyalı politoloq Aleksandr Karavayev maraqlı fikir səsləndirib ki, iqtisadiyyat və bir sıra layihələrin birgə işlənməsi Ermənistanı Azərbaycanla birləşdirən elementlərə və yüksəliş nöqtəsinə çevrilə bilər. Rusiyanın vasitəçilik rolunu nəzərə alaraq, birgə iqtisadi layihələrin həyata keçirilməsi tam hüquqlu münasibətlərin normallaşmasının mühüm aspektinə çevrilə bilər.

***- Bu yaxınlarda yenidən Azərbaycanın Avropa İqtisadi İttifaqına müşahidəçi qismində qoşulmasından danışmağa başladılar. Bu perspektivi necə qiymətləndirirsiniz?***

- Aİİ-nin strateji inkişafı baxımından Azərbaycan həm iqtisadiyyatın, həm də əhalinin sayına görə çox mühüm oyunçudur. Bu, satış bazarlarının genişləndirilməsi, ümumi ticarət məkanının genişləndirilməsi baxımından Aİİ üçün böyük irəliləyiş olardı. Bu arada sual yaranır ki, Azərbaycan hansı halda inteqrasiyaya getməyə hazırdır? Fakt budur ki, Aİİ-yə üzvlük Aİİ çərçivəsində qəbul edilmiş bütün sənədlər paketinin, standartların, müxtəlif növ normativ hüquqi aktların həyata keçirilməsini nəzərdə tutur. Həmçinin, ümumi standartlar bazarı yaratmaq üçün Bakı gömrük sistemini qismən yenidən qurmalı olacaq. Bu məsələdə Azərbaycan iqtisadi baxımdan nə qədər sərfəli olduğunu özü qərar verməlidir.

***- Ermənistan Azərbaycanın Aİİ-yə müşahidəçi qismində daxil olmasına mane ola bilərmi?***

- Aİİ çərçivəsində bütün məsələlərin kollektiv şəkildə həll olunduğunu nəzərə alsaq, təbii ki, Ermənistanın veto hüququ var. İndiki mərhələdə İrəvanın Bakının heç bir problem olmadan ittifaqa daxil olmasına imkan verəcəyini təsəvvür etmək çətindir, baxmayaraq ki, iqtisadi baxımdan bu, Ermənistan üçün çox ciddi kömək olardı. Əslində, Aİİ çərçivəsində malların sərbəst hərəkəti Ermənistan üçün tamamilə yeni reallıq yaradar, onu nəqliyyat, investisiya cəlbediciliyi baxımından tamamilə fərqli şəraitə gətirərdi, bu, onun iqtisadi inkişafı üçün böyük sıçrayış olardı. Lakin bu arqumentlərin Ermənistan rəhbərliyi üçün nə qədər önəmli olacağını zaman göstərəcək.

***- Türkiyə Aİİ-də müşahidəçi statuslu üzv ola bilərmi? Və bu iqtisadi ittifaqın perspektivləri necədir?***

- İran təcrübəsindən (azad ticarət zonası vasitəsilə, azad ticarət zonasının bəzi ayrı-ayrı seqmentlərinin yaradılması yolu ilə) gördüyümüz kimi, Türkiyənin Aİİ-yə daxil olması ehtimalı var.

Bir sıra əmtəə məhsulları üzrə, Aİİ-nin də İran nümunəsində olduğu kimi, belə təcrübəsi var. Türkiyənin kifayət qədər aktiv ixracatçı olduğunu nəzərə alsaq, məncə, Türkiyənin Aİİ ilə hansısa formal münasibətdə olması iqtisadi baxımdan sərfəli olardı. Bu, onun mallarının Aİİ bazarına ixracının genişlənməsinə kömək edərdi.

Amma yenə də belə məsələlər həmişə qarşılıqlı şəkildə həll olunur. Türkiyə ilk növbədə Aİİ ölkələrindən gətirilən bir sıra mallar üçün gömrük rüsumlarını azaltmalı olacaq. Həmişə kompromis mövqelər axtarışı var. Ümumiyyətlə, Aİİ üçün bu, böyük irəliləyiş, böyük genişlənmə və ümumi bazarlar olardı, postsovet məkanından kənara çıxan iqtisadi əməkdaşlığın tamamilə fərqli konfiqurasiyası yaradardı.



***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ

SƏS

24 dekabr
2021-ci il



# Messi antirekordunu təkrarladı

**PSJ-nin argentinalı futbolçusu Lionel Messi antirekordunu təkrarlayıb.**

**Qol.az "Stats Foot"a istinadən xəbər verir ki, futbol üzrə Fransa çempionatının 19-cu turunda səfərdə "Lor-yen"lə matçda (1:1) fərqlənə bilməyən argentinalı hücumçu bu mövsüm Paris təmsilçisinin səfərdə keçirdiyi 8 oyunun heç birində qol vurmayıb. Bu, onun karyerasındakı ən pis seriyasının təkrarıdır. 2006-cı ilin sentyabrından 2007-ci ilin martına qədər Messi "Barselona"nın heyətində ardıcıl 8 səfər oyununda fərqlənə bilməyib.**


# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**


## Həkimdən MƏSLƏHƏT: Soyuq qış günlərində bu vitaminlər qəbul edilməlidir



"Xüsusilə qış aylarında hər gün gündüz vaxtı gəzintiyə çıxma laımdır. Çünki bu cür gəzintilər yuxu hormonu melatoninin istehsalını təşviq edir". Bunu diyetoloq Alena Stepanova "Zvezda" telekanalına müsahibəsində bildirib. Onun fikrincə, havanın soyuq və çiskinli olmasına baxmayaraq, çölə çıxmaq lazımdır. Həkim qışda insan orqanizmi üçün lazım olan vitaminlərin də adını çəkib. Onların arasına ən yaxşı profilaktik miqdarda qəbul edilən C və D vitaminlərini də daxil edib.

"Özünü müalicə etməməlisən, çünki əks göstərişlər var. Hər bir vitaminin öz formaları, dozaları mövcuddur", - deyə mütəxəssis xəbərdarlıq edib. Həkim qışın soyuğunda pəhrizin müxtəlifliyinə nəzarət etməyi də tövsiyə edib. Onun fikrincə, tortlar və xəmir xörəkləri həddindən artıq çox qəbul edilməməlidir.

Bundan əvvəl diyetoloq Anna Belousova depressiya ilə mübarizə aparan məhsulların adını açıqlayıb. Onlara xurma, yerkökü və balqabaq kimi narıncı meyvə və tərəvəzləri aid edib. Bu qidaları payız və qışda yemək qısa gündüz saatlarında əhval-ruhiyyəni yaxşılaşdırır./Publika.az

## ELAN

**Fətiyev Telman Bəhmən oğlunun adına məhəllə 5057/68, bina 8, mənzil 53 ünvanına verilmiş çıxarış (kupça) itdiyi üçün etibarsız sayılır.**

## Dərinizin erkən qocalmasının səbəbi: Bu vərdişlərdən uzaq durun

Dərinin qocalması təbii prosesdir və qarşısını almaq mümkün deyil. Dərimizin daha erkən qocalmasına səbəb olan bəzi amillər var. Yeməyə vərdiş etdiyimiz bəzi qidalar dərinin qocalmasını sürətləndirir.

**Səhər şəkərli məhsullar istehlak etmək**

Əksəriyyət insan səhərlər bol şəkərli qidalar yeməyi sevirlər. Lakin bu şirniyyatların tərkibindəki artıq şəkər dərinizin sağlamlığına zərər verə bilər. Həddindən artıq şəkər istehlakı dərinin qocalmasını sürətləndirir.

**Ağ çörək**

Qidalanmanızda ağ çörəkdən uzaq durun. Ağ çörək qida ilə zəngin xüsusiyyətlərdən məhrumdur və şəkərin başqa bir versiyasıdır. Tərkibindəki yüksək B vitamini təmizlənmə prosesi zamanı itir. Əvəzində tam buğdadan hazırlanmış çörək istehlak edə bilərsiniz. Bu çörək növü daha az emaldan keçir, ona görə də tərkibində B vitaminləri tam olaraq qalır.

**Qidalanmada vitaminə yer ayırın**

Əgər yeməkləriniz ət, yumurta və kartofdan ibarətdirsə və yanında tərəvəz yoxdursa, dərinizin qocalma prosesini sürətləndirmiş olursunuz. Meyvə və tərəvəzlər dərinin daha sağlam qalmasına kömək edən antioksidantlarla zəngindir. Buna görə də, yulaf əzməsinə çiyələk və ya yumurtanıza ispanaq əlavə edərək həm toxluq hissini artıra, həm də dərinizin sağlam qalmasına kömək edə bilərsiniz.

**Qəhvənizə dadlandırıcı əlavə etməyin**

Qəhvənin necə hazırlnaması da dərinizin qocalmasına təsir edə bilər. İstər isti, istərsə də buzlu qəhvə içsəniz, qədərindən artıq dadlandırıcı əlavə etmək dərinizə mənfi təsir göstərə bilər. Dərinizin sağlamlığı üçün əlavə şəkəri məhdudlaşdırmaq və səhər yeməyinizə meyvə və tərəvəz kimi qidaları daxil etmək vacibdir./Teleqraf.com

## Başsağlığı

Bakı şəhəri 6 nömrəli poliklinikanın kollektivi hakim Bəhmən Nərimanova **həyat yoldaşının** vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin.***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**